BST
The Black Sea Trust for
Regional Cooperation

USAID
AMERİKA XALQINDAN

EDF
SBIIYF

**İnqilab Əhmədov, Samir Əliyev, Azər Mehtiyev,**

# Hasilat Sənayesində Benefisiar Sahiblik:

## Qlobal təcrübə və Azərbaycan nümunəsi

**BAKI - 2020**

# MÜNDƏRİCAT


**GİRİŞ** **3**

**1. Benefisiar sahiblik: Mahiyyəti, MHŞT və digər beynəlxalq təşəbbüslərin tələbləri, beynəlxalq təcrübə** **5**

1.1. Benefisiar sahiblik haqqında məlumat niyə vacibdir? 5

1.2. Benefesiar sahibliyi haqqında məlumat açıqlığı kimin üçün faydalı ola bilər? 5

1.3. "Benefisiar Sahib" kimdir? 6

1.4. Hasilat Sənayesində Benefisiar Sahiblik məsələsi digər sahələrlə müqayisədə niyə daha önəmlidir? 8

1.5. Hasilat Sənayesində Benefisiar Sahiblik necə işləyir? 9

1.6. Hasilat sənayesi şirkətləri BS-lərini necə gizlədir? 9

1.7. MHŞT hesabatlılığında benefisiar sahiblik 10

1.8. Açıq Hökumət Tərəfdaşlığının benefisiar sahiblik məlumatlarının açıqlanması ilə bağlı fəaliyyəti 11

1.9. Siyasi Nüfuz Sahibləri nədir və niyə vacibdir? 12

1.10. Uğurlu təcrübələr 13

**2. Benefisiar sahibliklə bağlı məlumat mənbələri** **14**

2.1. Benefisiar Sahiblik üzrə Məlumat Standartı 18

2.2. Məlumatların yoxlanması (verifikasiyası) 21

**3. Benefisiar Sahiblik: Azərbaycanda hazırkı durum (imkanlar və maneələr)** **23**

3.1. Azərbaycan beynəlxalq EİTİ prosesində (qısa xülasə) 23

3.2. Hasilat sənayesində şəffaflıq təşəbbüsünün davam etdirilməsi üzrə milli proses 24

3.3. Benefisiar sahibliyin açıqlanmasına dair Azərbaycanın yol xəritəsi 27

3.4. Azərbaycanın mövcud qanunvericiliyində "benefisiar sahiblik" konseptinin qoyuluşu 28

3.5. Benefisiar sahiblik məlumatlarının açıqlanmasına dəstək layihəsi: icrası və tövsiyələri 32

3.6. Benefifisiar sahiblik konseptinin Azərbaycan cəmiyyətində anlaşılma səviyyəsi: sorğular nə göstərir? 38

3.7. Benefisiar sahibliyin açıqlanması sahəsində VC nə edə bilər? 40

# GİRİŞ

Son zamanlar benefisiar sahibliklə bağlı məlumat açıqlığı qlobal çağırışların siyahısında prioritet yerlərdən birinə çevrilib. Beynəlxalq ictimaiyyət dünyada korrupsiyanın miqyasının artıq təhdidedici həddə çatdığını vurğulayır və bunu bel sütununun benefisiar sahibliklə bağlı məlumatların qapalılığı ilə əlaqələndirir. Hazırda dünyada 70% korrupsiya halları məhz anonim şirkətlər vasitəsilə baş verir.[1]

Bu trenddə diqqətəlayiq məqam odur ki, artıq benefisiar sahiblik yalnız bir təşkilatın və ya qurumun missiyası yox, bu sahədə öndə gedən bütün beynəlxalq qurumların və təşəbbüslərin birgə gündəliyinə çevrilir. Əgər öncə bu məsələ ilə əsasən Pulların yuyulması ilə bağlı maliyyə mübarizəsi (FATF) beynəlxalq qrup məşğul olurdusa, hazırda bu artıq Beynəlxalq Şəffaflıq (Tİ), Hasilat Sənayesind Şəffalıq Təşəbbüsü (EİTİ), Açıq Hökumət Tərəfdaşlığı (OGP) və digər qurumların birgə fəaliyytinə çevrilməkdədir.

Təsadüfi deyil ki, 2018-ci ildə Açıq Hökumət Tərəfdaşlığı ilə Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü arasında Anlaşma Memorandumu imzalandı və bu iki nüfuzlu təşkilat adı çəkilən istiqamətdə səylərini birləşdirdi. OGP-nin əhatə dairəsinin daha geniş olması, EİTİ-ın isə yalnız hasilat sənayesi ölkələrini əhatə etməsi benefisiar sahibliklə bağlı fəaliyyətin genişlənməsinə nəinki maneə olmadı, əksinə qarşılıqlı töhvə baxımından bu fəaliyyəti daha da əhatəli və ardıcıl etdi. OGP ölkələrinin əksəriyyətinin məhz hasilat sənayesi ölkələri olması, eyni zamanda bu nüfuzlu təşəbbüsdə əksər inkişaf etmiş ölkələrin təmsilçiliyi benefisiar sahibliklə bağlı fəaliyyətin potensial təsir imkanlarını xeyli artırdı.

İndi artıq benefisiar sahibliklə bağlı məlumatların əhatə dairəsi dövlət müəssisələri, hasilat sənayesində kontraktların şəffaflığı, bu sahədə icazələrin lisenziyaların verilməsi ilə yanaşı həm də fiskal şəffalıq məsələlərini özündə ehtiva edir və hər 2 təşəbbüsə qoşulan ölkələr fəaliyyətində məhz benefisiar sahibliyi əsas prioritet kimi dəyərləndirir.[2]

Heç təsadüfi deyil ki, OGP-nin 2019-ci il hesabatında gender və benefisiar sahiblik öndə gedən 2 prioritet kimi müəyyənləşdirilib.[3]

---

[1] https://www.openownership.org/

[2] https://www.opengovpartnership.org/documents/ogp-annual-report-2019/

[3] https://www.opengovpartnership.org/documents/ogp-annual-report-2019/

Bəs Azərbaycan bu sahədə hansı mövqedədir? Klassik hasilat ölkəsi olaraq hökumət benefisiar sahibliklə bağlı məlumat açıqlığına nə dərəcədə hazırdır və istiqamətdə hansı addımları atmaq niyyətindədir?

Əvvəla, xüsusilə qeyd edilməlidir ki, benefisiar sahiblik sahəsində məlumat açıqlığı əlahiddə olaraq ayrı-ayrı ölkələrin tələbi və öhdəliyi deyil, ilk öncə beynəlxalq tələbdir. Çünki digər öhdəliklərdən fərqli olaraq benefisiar sahiblik məlumatlarının açıqlığı bir qayda olaraq dünyanın qapalı məkanlarında, ofşorlarda qeydiyyatdan keçməklə pozulur. Beynəlxalq səviyyədə təşəbbüslər və müvafiq fəaliyyətlər olmazsa, istənilən ölkənin daxilində bu sahədə məlumat açıqlığına nail olmaq çox çətindir. Bu baxımdan heç təəccüblü deyil ki, adətən benefisiar sahibliklə bağlı məlumatlar bu və ya digər ölkələrə beynəlxalq qurumlardan daxil olur. İkincisi, təəssüflə qeyd edilməlidir ki, əksər halda xüsusilə inkişaf etməkdə olan hasilat ölkələrində bu sahədə real nəticə əldə etmək üçün yerli potensial kifayət etmir. Bu və ya digər şirkətlərin arxasında hansı nüfuzlu şəxslərin durmasını təyin etmək üçün beynəlxalq əməkdaşlığa ehtiyac olur.

Beləliklə, hər iki halda benefisiar sahiblik məlumatlarının şəffaflığı beynəlxalq fəaliyyətə çevrilir və yerli aktorlar beynəlxalq qurumlarla nə qədər sıx və effektix əməkdaşlıq edərlərsə, nəticə də bir o qədər yüksək olur.

Azərbaycan da hasilat sənayesi ölkəsi kimi bu sırada önəmli rola malikdir və benefisiar sahiblik məlumatlarının açıqlığı cəmiyyət üçün əsas çağırışlardan biri olmalıdır.

Hazırkı yazıda, ilk öncə beynəlxalq aləmdə benefisiar sahibliklə bağlı fəaliyyətin mövcud durumunu dəyərləndirib, bu istiqamətdə hökm sürən prinsip və tələblərə aydınlıq gətiriləcək, dünyada cərəyan edən fəaliyyətə nəzər salınacaq, bəzi nümunələrə xitab ediləcək. Benefisiar sahibliyin mahiyyəti və tələbləri, bu sahədə məlumat açıqlığını sistemli və ardıcıl etmək üçün atılan addımlar, habelə ayrı-ayrı ölkələrin müsbət təcrübəsinə nəzər yetirməklə Azərbaycanın bu istiqamətdə mümkün hədəflərini və bu yolda maneələri sıralamaq hazırkı yazının əsas məqsədidir.

Bu yazıda əks etdirilən tədqiqat nəticələri və müvafiq tövsiyələr "Benefisiar sahibliyin açıqlanması mədən sənayesində şəffaflığın vacib elementidir" layihəsi çərçivəsində hazırlanıb. Layihə Almaniya Marşal Fondu tərəfindən maliyyələşdirilir.

# 1. Benefisiar sahiblik: Mahiyyəti, MHŞT və digər beynəlxalq təşəbbüslərin tələbləri, beynəlxalq təcrübə

## 1.1. *Benefisiar sahiblik haqqında məlumat niyə vacibdir?*

Benefisiar sahibliklə bağlı məlumatın qapalılığı, hasilat sənayesi ölkələrinin iqtisadiyyatına xüsusi olaraq aşağıdakı istiqamətlərdə zərər vurur:

İlk öncə hasilat sənayesi ölkələrinin iqtisadiyyatına daxil olan xarici şirkətlərin sahibliyi bəlli deyilsə, o halda çox böyük risk var ki, onların bir qismi dolayısı ilə ölkə daxilində qərar qəbul edən şəxslərin və ya onların yaxınlarının öz biznesini təmsil edir ki, bu da maraqlar konflikti yaradır. Təbii ki, bu halda alınan icazələr və lisenziyalar ölkə iqtisadiyyatının və dövlətin marağı baxımından ən əlverişli iddiaçıları sıxışdırıb aradan çıxarır və bununla da effektivlik itkisinə gətirib çıxarır.

Başqa tərəfdən maraqlar konflikti prinsipinin pozulmasının məntiqi nəticəsi kimi, bu sahələrin tənzimlənməsi prosesi həmin biznes qurumlarının ədalətsiz xeyrinə, ölkə iqtisadiyyatının isə zərərinə işləyir. Eyni zamanda paralel olaraq biznesin fəaliyyəti çoxşaxəli qanun pozuntuları, məslən rüşvət, pul yuma və müqavilə saxtakarlığı ilə maşaiyət olunur.

Digər itki vergidən yayınma ilə baş verir. Belə ki, transfer qiymətlər, ticari qiymətlərin manipulyasiyası, əsas gəlirlərin offşorlarda yığımı dövlət büdcəsini iqtisadiyyatın almağı olduğu potensial vergidən məhrum edir.  Xüsusilə offşorlarda qeydiyyatdan keçən biznes qurumları cürbəcür vasitələrlə, məsələn etibarnamalərlə, saxta partnyorların cəlbi ilə gəlirin əsas hissəsini özlərinin şəxsi hesablarına ötürürlər.

## 1.2. *Benefesiar sahibliyi haqqında məlumat açıqlığı kimin üçün faydalı ola bilər?*

Benefisiar sahibliyi məlumat açıqlığı ilk növbədə vətəndaş cəmiyyəti (VC) təmsilçiləri və media nümayəndələri, xüsusilə təhqiqatçı jurnalistlərin səmərəli fəaliyyəti üçün çox böyük avantaj ola bilər. Hazırda bu sahədə dünyada ən populyar təhqiqatçı jurnalistika şəbəkəsi sayılan Mütəşəkkill Cinayətkarlıq və Korrupsiya

Hesabatı Layihəsidir (OCCRP)[4] ki, 2006-cı ildə yaranan bu təşkilat indiyə qədər xeyli sayda araşdırma aparıb dərc etmiş, hesabatlarının əksəriyyəti böyük ərs-səda doğurmuşdur.

VC və medianın benefisiar sahibliklə bağlı fəaliyyəti mülkiyyət sahibliyi ilə bağlı məlumatı açıqlamaqla son anda sadə vətəndaşların ehtiyaclarını ödəyir, onları daha məlumatlı edir və bununla da etimadlı cəmiyyətin bərqərar olmasına töhvə vermiş olur.

Benefisiar sahiblik məlumatından faydalanan digər tərəf dövlət qurumlarıdır. Onlar bu məlumatlara yiyələnməklə öz mandatlarını daha uğurlu həyata keçirə bilir. Sirr deyil ki, hasilat sənayesi ölkələrində adətən institusional sistem zəif olduğundan qərar qəbul edən tərəf (məsələn, xarici şirkətə lisenziya verən agentlik) tam məlumata mailk olmadığından qərarı dürüst qəbul etmir, şübhəli biznesə icazələr verir və bununla da son anda dövlətin maraqları arzu olunan səviyyədə qorunmur. Bu baxımdan həm icazələr verən, həm də maliyyə nəzarəti həyata keçirən qurumlar benefisiar sahiblik məlumatının açıqlığından yalnız faydalana bilir.

Bu sırada hasilat sənayesi ölkələrinin hüquq-mühafizə orqanlarını da xüsusi qeyd etmək lazımdır. Onlar cinayət tərkibli fəaliyyətlərin araşdırmasında, hətta bəzi hallarda onun qarşısını almaqda məlumat boşluqlarını doldura bilir.

Və, nəhayət, məlumat açıqlığından həm də investorlar fayda əldə edərdi. Belə ki, benefisiar sahibliklə bağlı tam və şəffaf məlumat bazası onlara risklərini minimuma endirilməsinə kömək edər, hasilat ölkələrinə girişi rahatlaşdırardı.

## 1.3. *"Benefisiar Sahib" kimdir?*

Benefisiar sahib nisbətən yeni termindir. Baxmayaraq ki, beynəlxalq səviyyədə benefisiar sahiblik terminin tərifi bir sıra rəsmi sənədlərdə əksini tapıb, ayrı-ayrı ölkələrdə nisbətən fərqli yanaşmalar mövcuddur. Məsələn, Azərbaycanda mövcud qanunvericlikdə benefisiar mülkiyyətçi termini işlədilir, ki, bu da məna etibarıı ilə çox yaxın termindir.

Bütün bunlara baxmayaraq, son 5 ildə, xüsusilə MHŞT sənədlərində bu termin işlədililəndən benefisiar sahibliyin dəqiq məna yükü önəm daşıımağa başladı.

İlk öncə onu qeyd edək ki, benefisiar sahib heç bir halda hüquqi şəxs ola bilməz. Benefisiar sahib fiziki şəxsdir.

[4] https://www.occrp.org/

ABŞ –ın G8 Fəaliyyət Planında (2013) benefisiar sahibliyin tərifi belə izah edilir: "... Birbaşa və ya dolayı yolla, hüquqi şəxs üzərində əsaslı nəzarəti həyata keçirən və ya bir neçə istisna olmaqla, bu hüquqi şəxsə əhəmiyyətli iqtisadi maraq göstərən və ya böyük iqtisadi mənfəət əldə edən fiziki şəxs."[5]

Digər bir tərif MHŞT-nin 2019-cu il Standartında əksini tapıb. "Şirkətə münasibətdə mənfəət sahibi, birbaşa və ya dolayı yolla korporativ qurumun sahibi və ya ona nəzarət edən fiziki şəxs (lər) deməkdir."[6]

Bir qayda olaraq uğurlu Benefisiar Sahiblik tərifi aşagıdakıları özündə ehtiva etməlidir:

1. Benefisiar sahib **son (ultimate) faydalanan** şəxsdir**.** Bu baxımdan həmin şəxs və ya şəxslər birbaşa səhmdar olmaya da bilər. Təcrübə göstərir ki, bu şəxslər doğrudan da əksər halda birbaşa səhmdar olmayıb, belə demək mümkünsə, biznesdən kənarda duranlar olur. Belə olan halda, təbii ki, onlar reyestrdə olan səhmdarlar kimi mütləq qaydada mənfəət sahibləri deyillər.

2. Benefisiar sahibin biznesdə əsas hədəfi **iqtisadi faydadır:** Yəni, bu şəxslər daha çox cari mühasibatlıq gəlirliliyinə yox, şirkətin iqtisadi mənfəətinin əhəmiyyətli hissəsinə (məs., artıq pul) tuşlanır. Və, bu baxımdan onlar daha çox dolayı münasibətləri və ya digər qeyri-kapital təsiri olan insanları əhatə edir.

3. Nəhayət, benefisiar sahib **nəzarət** funksiyasını həyata keçirir. Yəni bu şəxslər, məsələn şirkətin qərarlarında əhəmiyyətli söz sahibi olmayan səhmdarları əhatə etməklə (məs., etibarnamələr vasitəsilə "nəzarət") ona nəzarəti öz əlində saxlayır.

Benefisiar sahibin kim olmasını daha dəqiq müəyyənləşdirmək üçün, yaxşı olardı ki**,** ***Kim "Benefisiar Sahib" deyil?*** sualını cavablandıraq.

İlk öncə **Korporativ səhmdarlar** heç bir halda benefisiar sahib ola bilməz**.** Öncə qeyd edldiyi kimi, yalnız fiziki şəxslər (yəni insanlar) benefisiar sahib ola bilər. Bu məntiqlə şirkətlər və ya digər hüquqi şəxslər də benefisiar sahib ola bilməzlər.

Vəzif**ə**l**i** şəxslər və şirkətdə səlahiyyət sahibləri**,** məsələn**,** şirkətin **Direktoru və ya İdarə Heyəti üzvlərinin** benefisiar sahib olması mütləq deyil. Yəni, həmin

---

[5] https://www.tax-news.com/news/US_Publishes_G8_Beneficial_Ownership_Plan____61149.html
[6] https://eiti.org/files/documents/eiti_standard_2019_en_a4_web.pdf

kateqoriyadan olan şəxslər benefisiar sahib ola da bilər, olmaya da bilər. Yalnız həmin vəzifəni tutmaqla adı çəkilən kateqoriydan olan şəxslər avtomatik olaraq benefisiar sahib sayılmır. Bunun üçün yixarıda qeyd edilən xarakterik şərtlər yer almalıdır.

Nəhayət, **Əvəzedicilər**, yəni digər insanların maraqlarını təmsil etmək üçün etibar edilmiş şəxslər şirkətdə səhmdar olsa belə, son faydalanan benefisiar sahib kimi qəbul edilməməlidir.

Hazırkı sənədin predmeti məhz hasilat sənayesində benefisiar sahibliyin araşdırılması olduğundan, bu sahədə benefisiar sahibliyin necə işləməsini, habelə şirkətlərin benefisiar sahibliərini necə gizlətməsini nəzərdən keçirək.

### 1.4. *Hasilat Sənayesində Benefisiar Sahiblik məsələsi digər sahələrlə müqayisədə niyə daha önəmlidir?*

Məhz hasilat sənayesi, yəni neft, qaz və mineral hasil edən ölkələrdə son zamanlar benefisiar sahiblik məsələsinin gündəmə gəlməsi ümumi trendin güclənməsi və genişlnəmsi üçün bir təkan oldu. Şəffaflıq və hesabatlılığı hədəfləyən MHŞT müəyyən məsafə qət edəndən sonra 2000-ci illərin sonuna haqlı olaraq belə bir qərara gəldi ki, benefisiarların qapalılığı hasilat sənayesi ölkələrində şəffaflığı və hesabatlılığı təmin etmək baxımından ən zəif halqadır. Çoxsaylı faktlar ona işarə edirdi ki, hasilat ölkəlırinin hakimiyyətləri ölkələrinin institusional bünövrəsinin kövrəkliyindən, qanunların aliliyinin təmin edilməməsindən sui istifadə edib offşor şirkətləri vasitəsilə ölkənin yeraltı sərvətlərini talayır, cəmiyyət isə bu sərvətlərdən arzu olunan faydanı görmür. Məlum oldu ki, hasilat ölkələrinin rəsmi olaraq əldə etdiyi gəlirlərin müntəzəm hesabatlılığının təşkili bu məlumatı nəzərə almadan, yaxşılığa doğru çox az şeyi dəyişə bilir. Əsas hədəf kənarda qalır. Odur ki, adı çəkilən təşəbbüs çərçivəsində benefisiar sahiblərin müəyyənləşdirilməsi əsas hədəfə çevrildi və 2020-ci ilin əvvəlində bu məlumatlar MHŞT ölkələri üçün məcbur xarakter daşımağa başlayıb.

Sirr deyil ki, biznes mühitinin adətən əlverişsiz olduğu bu ölkələrdə əsas gəlir mənbəyi məhz hasaliat sənayesi sayılır. Üstəlik digər biznes sahələri ilə müqayisədə fantastik renta gücünə (məsələn, 2000-ci illərin ortalarında xam neftin maya dayəri ilə müqayisədə dünya bazarında satış qiymət arasında fərq orta hesabala 6-7 dəfədən çox idi) malik neft, qaz biznesi hakimiyyətə yaxın çevrə üçün ən əlverişli gəlir mənbəyidir.

## 1.5. *Hasilat Sənayesində Benefisiar Sahiblik necə işləyir?*

Adətən hasilat sənayesində benefisiar sahiblər, izi itirmək üçün mülkiyyət zəncirləri ("çoxmərtəbəli" şirkətlər) qurular. Bu halda kənar izləyici üçün əlaqəliliy tapmaq və tez bir zamanda bu və ya digər biznesin əsl sahibini dənələmək çətinləçir.

Bundan əlavə benefisiarlar çox hallarda təmsilçı səhmdarlardan (3-cü tərəfin səhmləri), səhm "daşıyıcısı"ndan (əsl sahibin adı açıqlanmır) yararlanır. Bu halda etibar edilənlər (qəyyumun əmlaka qanuni hüququ var, lakin ayrı bir benefisiarın xeyrinə hərəkət etməlidir) üzdə olan faydalanan kimi görünsə də rolu əsl sahibi təmsil etmək olur. Onların iştirakı ilə ofshor müəssisələrinə böyük həcmdə vəsaitlər köçürülür, əsl sahiblər isə kölgədə qalır.

Amma onu da qeyd etmək lazımdır ki, mürəkkəb, qeyri-şəffaf bir mülkiyyət quruluşu, şirkətin maliyyə və ya digər qanun pozuntuları ilə əlaqəli olduğuna işarə deyil.

## 1.6. *Hasilat sənayesi şirkətləri BS-lərini necə gizlədir?*

Benefisiar sahiblər bir qayda olaraq bunun üçün **əvəzedici fiziki şəxslərdən,** ailə üzvlərindən, "silahdaşlarından" (gizli sahibi dəstəkləyən və nəzarətində olan şəxs), ləqəblər (saxta adlar) istifadə etməyə üstünlük verirlər.

Digər yol, şirkətin reyestrinə q**eyri-müəyyən subyektlərin** səhmdarlar kimi daxil edilməsidir. Məsələn, siyasi birliklər, icma inkişaf korporasiyaları və dövlət və ya bələdiyyəyə məxsus investisiya şirkətləri səhmdar kimi çıxış edərək bir növ aralıq rol oynayırlar.

**Aktivlərə sahib olub ofşor ödəmələri** etməklə ofşorlarda yerləşən hesablara və ya özəl investisiya şirkətlərinə pul köçürmək yolu ilə faydalanmaq əsas yollardan biri sayılır.

**Şübhəli kommersiya münasibətləri** zəminində, məsələn həyata keçirilməmiş xidmətlər üçün ödəmə, güzəştli şərtlərlə aktivləri gizli sahibin nəzarət etdiyi başqa bir müəssisəyə satmaq kimi əməliyyatlar ip ucu ola bilər.

## 1.7. *MHŞT hesabatlılığında benefisiar sahiblik*

MHŞT-nin 2019-cu ildə yenilənmiş Standartı 2.5 paraqrafdakı tələbini bütövlükdə benefisiar sahibliyə həsr edib. Bu paraqrafda, öncə qeyd edildiyi kimi,

benefisiar sahibliyin tərifi verilib, benefisiar sahiblik hesabatlılığın 2020-ci il yanvarın 1-dən bütün MHŞT ölkələri üçün məcburi olması və s. əksini tapıb.

Xüsusi olaraq Standartda qeyd edilir ki, hesabatlılıq yalnız hasilat ölkəlirində faktiki fəaliyyət göstərən əsas şirkətlərə yox, həm də **tenderlərdə** işrirak edən, və o cümlədən **investisiya** edən hasilat şirkətlərinə də *(MHŞT-2019 Standatı, §2.5(c*)) aiddir.

Digər tərəfdən, Standartda qeyd edilir ki, Çoxtərəfli Qrup (ÇQ) həm də korrupsiya/vergidən yayınma risklərinin olduğu sahələrdə (**Neft qaz və mineralların satışı, Neft qaz və mineralların emalı, Servis kontraktları)** cəlb edilən şirkətləri nəzərdən keçirməlidir. BS açıqlanması Dövlət Şirkətlərindən xam neft alan şirkətləri və ya subkontraktorları da, müəyyən məbləğdən yuxarı olan halda, özündə ehtiva edə bilər.

Qeyd edilməlidir ki, **BS açıqlaması adətən dünya birjalarının listinqində olan şirkətlərə şamil olunmur.**

**Amma bununla belə;**

- Listinqdə olmaqla, şirkətlər artıq bütün bu məlumatları ictimaiyyətə açqlamağa **borcludur;**
- MHŞT yalnız onu tələb edir ki, şirkətlər və onların törəmə qurumlarının qeydiyyatdan keçdiyi müvafiq **fond birjasının adını** açıqlasınlar *(MHŞT-2019 Standartı §2.5(f)(iii));*
- MHŞT həmçinim birjalarda qeydiyyatdan keçmiş şrkətlərin bütün **mənfəət götürən törəmə qurumlarının** da açıqlanmasını tələb edir;
- ÇQ üçün mənfəət qazanan törəmə şirkətlərin tam siyahısını əldə edəndən sonra onların başında duran şirkətlə **sahiblik zəncirini** yaratmaq arzuolunandır.

**Standart həm də tələb edir ki, Birgə Müəssisələrin (BM) tərəfdaşları da BS məlumatını açıqlamalıdır;**

- MHŞT tələb edir ki, BM–nin hər bir üzvü özünün benefisiar sahibini açıqlamalıdır *(MHŞT-2019, Standartı §2.5(f)(iv));*
- Hər bir qurum təqdim edilən məlumatın dürüstlüyünə məsuliyyət daşıyır.

***MHŞT Standartının sahiblik/nəzarət məlumat açıqlığının minimal həddi***

- MHŞT təlҽb edir ki, BS tərifinin istifadəsi üçün **hədd** müəyyənəşdirilsin, amma bununla yanaşı xüsusi bir faiz nisbətini qoymur *(MHŞT-2019 Standartı, §2.5(f)(ii))*

**Aşağı hədd** daha faydalı məlumatların əldə edilməsinə kömək edir:

- BS adətən kiçik paylarda reallaşır, bəzən bu 5% -dən az ola bilir, amma böyük həcmli layihələrdə 5% = $ milyonlar deməkdir;
- Fiziki şəxsin **tam məcmu faizi,** eyni mülkiyyət zəncirindəki müxtəlif müəssisələrdə kiçik paylara rəğmən nəzərə alınmalıdır;
  *Məsələn, 5% hədd tələb etdikdə, fiziki şəxsin A şirkətində 3%, B Şirkətində 3 % = 6%, bütövlükdə bir sahiblik zənciri kimi götürülməlidir.*
- Məhdudiyyətlər, həm də **səhmdar nəzarətini** də nəzərə almalıdır;
  *Məsələn, 5% hədd ya mülkiyyət sahibliyi ilə, ya da şirkət üzərində 5% nəzarəti saxlamaqla (məs., etibarnamə ilə, müqavilə şərtləri ilə və ya qohumlar vasitəsilə, və s.) həyata keçirilə bilər.*

## 1.8. *Açıq Hökumət Tərəfdaşlığı (AHT)–nın benefisiar sahiblik məlumatlarının açıqlanması ilə bağlı fəaliyyəti*

2019-cu ildə AHT "Benefisiar Sahiblik Liderliyi" qrupu (Beneficial Ownership Leadership Group) yaratdı və bu istiqamətdə uyğun prinsiplərini müəyyənləşdirdi. Qrupa daxil olan ilk ölkələr sırasında Ermənistan, Keniya, Meksika, Latviya və Slovakiya yer alıb.

Əsas prinsiplər kimi, benefisiar sahiblik məlumatlarının məhdudiyyətsiz açıqlığına nail olmaq, habelə məlumatların standartlaşmasını təmin edib onu beynəlxalq ictimaiyyət üçün əlçatan etmək, vətəndaş cəmiyyəti ilə bu sahədə sıx əməkdaşlıq edib arzu olunan ictimai nəzarətə malik olmaq və s. nəzərdə tutur.[7]

## 1.9. *Siyasi Nüfuz Sahibləri (SNS) nədir və niyə vacibdir?*

[7] https://www.opengovpartnership.org/beneficial-ownership-leadership-group/

Siyasi Nüfuz Sahibləri (SNS) nisbətən az təsadüf edilən terminlərdən biridir. Son zamanlara qədər beynəlxalq səviyyədə də bu terminə BMT-nin sənədlərində Korrupsiyaya Qarşı Konvensiyada xatırladılırdı. Belə ki, bu Konvensiyanın 52-ci maddəsində SNS-in tərifi belə verilir; **görkəmli ictimai funksiyalar** həvalə edilmiş şəxslər və onların **ailə üzvləri** və **yaxın adamları.**[8]

Bundan başqa FATF-ın SNS-lə bağlı qaydaları mövcuddur.[9] Digər bir tərif 4-cü Avropa İttifaqı Çirkli Pulların Yuyulmasına Qarşı Direktivində əksini tapıb.[10]

MHŞT bu terminə nisbətən gec müraciət edib ki, bu da adı çəkilən təşəbbüsün və onun fəaliyyətində benefisiar sahiblik məsələsinin gənc olması ilə bağlıdır.

MHŞT SNS–in müəyyənləşdirməsini tələb edir və bunu ölkə çərçivəsində ÇQ-nin səlahiyyətinə buraxır. *(MHŞT-2019 Standartı, §2.5(d))*

Ümumən, **SNS**, hökumət başçıları, böyük siyasətçilər, yüksək səviyyəli hökumət, məhkəmə və ya hərbi rəsmilər, Dövlət Şirkətlərinin yüksək səviyyəli rəhbərləri və ya mühüm siyasi partiya rəsmiləri, hətta keçmiş səlahiyyətlilər, əgər onlar hələ də təsir imkanlarına malikdirsə, ola bilir.

Bundan başqa SNS-ə ailə üzvləri qan, nigah və ya digər vətəndaş ortaqlığı ilə və yaxın ailədən kənarda qalanlar da şamil edilir. Qeyd edilməlidir ki, bu əlaqəlilik həm şəxsi, həm də peşəkar ola bilər.

Beləliklə, göründüyü kimi, artıq kifayət qədər beynəlxalq sənədlərdə SNS-lər əksini tapır və hazırda benefisiar sahiblik mövzusunda məhz onlar ən əsas hədəf kimi müəyyənləşdirilir. Niyə onlara bu qədər həssas yanaşılır sualının cavabı sadədir. Öncə qeyd etdiyimiz kimi, məhz SNS-lər institusional boşluqdan və ictimai nəzarətin zəifliyindən sui istifadə edərək ölkənin yeraltı sərvətlərini kvazi-biznes şəbəkələri vasitəsilə talan edir.

Odur ki, hesabatlarda SNS-ə aid olan məlumatda həmin şəxslərin əlavə olaraq vəzifəsi və hətta vəzifədə olduğu müddətləri də açıqlanmalıdır.

MHŞT, ÇQ-yə SNS-ilə bağlı məlumatların acıqlanmasını, **heç bir hədd tələbinə baxmayaraq,** xüsusi və tam şəkildə israr etməyini tapşırır.

## 1.10. *Uğurlu təcrübələr*

---

[8] https://www.jus.uio.no/lm/un.against.corruption.convention.2003/52.html
[9] http://www.fatf-gafi.org/documents/documents/peps-r12-r22.html
[10] http://eur-lex.europa.eu/legalcontent/EN/TXT/PDF/?uri=CELEX:32015L0849&from=EN

Hazırda dünyada benefisiar sahiblik məlumatının açıqlığı istiqamətində fəaliyyətlər geniş vüsət alıb. Həm MHŞT, həm də AHT təşəbbüsləri çərçivəsində və eyni zamanda bu nüfuzlu təşəbbüslərin birgə sinerji layihələrindən irəli gələrək çoxlu sayda ölkələr bu istiqamətdə konkret qanunvericlik və institusional baza qurmaq, habelə vətəndaş cəmiyyəti və media institutları vasitəsilə nəzarəti təşkil etmək üçün səylər göstərir.

Regionun hasilat ölkələri arasında Ukrayna, Monqolustan və digər hasilat ölkələri xüsusilə seçilir. Belə ki, Ukrayna dünyada 2-ci ölkə olaraq (Böyük Britaniyadan sonra), 2016-cı ildən, fəaliyyət göstərdiyi sahəsindən asılı olamayaraq, bütün benefisiar sahiblərin rəsmi dövlət qeydiyyatını həyata keçirir[11] və bu məlumat bazasını Açıq Sahiblik (Open Ownership) beynəlxalq data bazasına inteqrasiya edir.

Digər bir uğurlu nümunə kimi Monqolustanı göstərmək olar ki, bu istiqamətdə, xüsusilə hasilat sənayesində qanunvericilik bazası xeyli təkmilləşdirilmişdir, Anti-Korrupsiya Komissiyasının Data Bazası çərçivəsində SNS-lərin illik aktivlərinin məlumat açıqlığı hesabatlılığını həyata keçirir.[12]

Qeyd etmək lazımdır ki, hər iki ölkə MHŞT-nin aktiv üzvləridir və onların hesabatlılıq praktikası beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.

[11] https://irc.gov.ua/en/reestr_edr

[12] http://www.xacxom.iaac.mn/xacxom

# 2. Benefisiar sahibliklə bağlı məlumat mənbələri

Benefisiar sahiblik ən sonda sərəncam verən və ya şirkətdən gəlir əldə edən şəxslər barədədir. Bu baxımdan məlumatların açıqlanması anonim şirkətlər tərəfindən sui-istifadə hallarının qarşısını ala bilər. Araşdırmalara görə, hökumətlər Benefisiar sahiblik məlumatlarından istifadə edərək bu vaxta qədər 1 milyard dollardan çox vəsaiti bərpa ediblər[13].

Şirkətlər və ya şəxslər başqa şirkəti sahib ola bilər, ancaq ən sonda qazanan fərdlərdir. Benefisiar sahibin kimliyini müəyyənləşdirmək üçün şirkətə nəzarət edən ən son həlqədə kimin olduğunu bilmək vacibdir. Şirkətlər şirkətlərə sahib olduqda belə sahiblik zəncirinin sonunda həmişə insan adı çıxır. Son nəticədə onlar şirkətin maliyyə uğurundan yararlanırlar, həm də onun uğursuzluğunda iştirak etməli olurlar. Cəmiyyət belə bir düşüncə var ki, hərdən şirkətin sahibinin digər şirkət olması daha yaxşı qəbul edilir nəniki fərdi şəxsin olması. Ancaq şirkətlər sahiblik zəncirində aralıq rolunu oynayır. **Şəkil 1-də** təsvir edilən sxemə diqqət yetirsək görərik ki, Şirkət 3-ə sahib olan Şirkət 2 əslində aralıq rolunu oynayır və real benefisiar sahib deyil.




**Şəkil 1. Benefisiar sahiblik sxemi**

Şirkətin tərkibi və qərarları üzərində əhəmiyyətli dərəcədə nəzarət faydaların və birbaşa risklərin idarə edilməsi məqsədilə tətbiq edilə bilər. Şirkətin maliyyə riskini üzərinə götürən insanlar qərar verən şəxslər olmaya bilər. Bu halda nəzarət edəni tanımaq vacibdir. Bu baxımdan benefisiar sahiblik şirkətdə iki iştirak formasını nəzərdə tutur: **sahiblik və nəzarət.** Benefisiar sahiblik konsepsiyası da şirkətlərə və digər

[13] https://www.openownership.org/uploads/openownership-factsheet.pdf

hüquqi təsisatlara necə sahiblik və nəzarət edilməsini başa düşməyə imkan verir. Hər hansı şəxs bir şeyə sahibdirsə, adətən onun üzərində müəyyən nəzarət mexanizminə malikdir. *Məsələn, şirkətin səhmlərinə malik olması ona səsvermə hüququ verə bilər.* Ancaq bəzi hallarda sahiblik və nəzarət səhmlərin növü, müqavilələr, sazişlər və digər mexanizmlər vasitəsilə bir-birindən ayrılır. Məsələn, icraçı direktor Direktorlar Şurasının digər üzvlərinin 60%-ni təyin etmək hüququna malik olar bilər və eyni zamanda biznesdə müəyyən maliyyə payı ola bilər. **(Şəkil 2)**




**Şəkil 2. Benefisiar sahiblik sxemi**

Sahiblik və nəzarətin benefisiar sahiblik termini altında birləşdirilməsi bizə mürəkkəb korporativ strukturların reallığını, o cümlədən insanın malik olduğu çoxsaylı korpartiv maraqları gösrməyə imkan verir. **Şəkil 3.1.-dən** göründüyü kimi, A şəxsi Şirkət 1-ə nəzarət edir, Şirkət 2-nin isə yarısına sahibdir. Bir sıra hallarda isə fərdin şirkət üzərində nəzarəti onun şirkətdəki səhm payından da çox olur. **Şəkil 3.2.-də** C şəxsi Şirkət 2-də cəmisi 20%lik paya malik olmasına rəğmən 60%-lik səsvermə hüququna malikdir.




**Şəkil 3. Benefisiar sahiblikdə nəzarət və sahiblik**

Bilmək vacibdir ki, hər iki şirkət dövlət müqavilələrindən iştirak edirlər, yoxsa hər ikisi satınalma zəncirində iştirak edəcəklər.

Hazırda dünyada benefisiar sahiblik sahəsində ixtisaslaşmış, böyük bir elektron bazanı özündə birləşdirən bir platforma - Open Ownership yaradılıb. **OpenOwnership** – biznes mühitinin yaxşılaşdırılmasından tutmuş korrusiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizəyə qədər siyasi məqsədləri qarşılayan benefisiar sahibliklə bağlı açıq reyestrin yaradılmasında milli hökumətlərə dəstək verən bir pilot proqramdır.




**Şəkil 4. Open Ownership platformasında şirkətlərə sahiblik sxemi**

Open Ownership platforması benefisiar sahibliyin şəffaflığı sahəsində müxtəlif ölkələrə dəstək göstərən və kiçik ekspert qrupu tərəfindən idarə olunan qeyri-gəlirli təşkilatdır[14]. Open Ownership təşkilatı missiyasına uyğun olaraq Global Impact tərəfindən maliyyələşdirilir. Maliyyə sponsopluğu qeyri-kommersiya sektorunda geniş yayılmış mexanizmdir və bu, təşkilatlara hüquqi şəxs yaratmadan yeni proqramlarını reallaşdırmağa imkan verir.

[14] https://www.openownership.org/about/

OpenOwnership təşkilatının yanaşmasına görə, benefisiar sahiblik heç də həmişə korporativ subyekt barədə «həqiqəti» təsvir etmir, ancaq həqiqətin bilərəkdən gizlədilməsini göstərməyə qadirdir.

Bu gün dünyanın bir çox ölkələrində hökumətlər benefisiar sahibliklə bağlı öhdəliklər götürüblər və OpenOwnership onların bir çoxu ilə əməkdaşlıq edir. Platformanın internet saytında açıqlanan məlumata görə[15], benefisiar sahibliklə bağlı 45 ölkə tam, 47 ölkə qismən öhdəlik götürüb. Bu ölkələrin 35-də OpenOwnership öz proqramını tətbiq edir. *Tam öhdəlik götürən ölkələrə* əsasən Qərbi Avropa ölkələri, o cümlədən Skandinaviya ölkələri, Almaniya, İspaniya, Fransa, Şimali Amerika qitəsindən Meksika, Afrika qitəsindən Misir, CAR, Zambiya, Asiya qitəsindən İndoneziya, Myanmar kimi ölkələr daxildir. *Qismən öhdəlik götürən ölkələrə* isə bəzi Cənubi Amerika (Braziliya, Argentina, Peru və s.), Asiya (Qazaxıstan, Monqolustan, Əfqanıstan və s.), Afrika (Çad, Mali, Konqo və s.) qitəsi ölkələri və Avstraliya daxildir. Keçmiş SSR ölkələri arasında Latviya, Litva, Estoniya və Ukrayna tam, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Ermənistan qismən öhdəlik götürüb. OpenOwnership Ukrayna, Qırğızıstan və Ermənistanda öz proqramını tətbiq edir. **(Şəkil 5)**




**Şəkil 5. Benefisiar Sahiblik öhdəliklərinin dünya üzrə bölgüsü**

[15] https://www.openownership.org/map/

OpenOwnership Platformasının yaratdığı məlumat bazasının məlumatları müxtəlif mənbələrə əsaslanır. Platformasının məlumat mənbələri[16] aşağıdakılardır:

- UK PSC Register
- Slovakia Public Sector Partners Register *(Register partnerov verejného sektora)*
- Denmark Central Business Register *(Centrale Virksomhedsregister [CVR])*
- Ukraine Consolidated State Registry *(Edinyy Derzhavnyj Reestr [EDR])*
- EITI Pilots

Məlumat mənbələri qismində 4 ölkənin – Birləşmiş Krallıq, Slovakiya, Danimarka, Ukrayna məlumat bazaları daxil edilib. Bundan başqa Beynəlxalq EİTİ platformasının 2013-2015-ci illərdə müxtəlif ölkələrdən hasilat sənayesində benefisiar sahiblik barədə məlumatların pilot qaydada topladığı baza da OpenOwnership bazasına transfer edilib. Hazırda OpenOwnership məlumat bazasında benefisiar sahibliklə bağlı 200-dən çox yurisdiksiyanı əhatə edən 12 milyondan çox məlumat yerləşdirilib[17].

## 2.1. *Benefisiar Sahiblik üzrə Məlumat Standartı*

Benefisiar Sahiblik barədə daxil olan məlumatlar o zaman dəyərli olur ki, biz onu asanlıqla bölüşə bilirik və əmin oluruq ki, bu məlumatlar düzgün anlaşılacaq. Bundan sonra müxtəlif ölkələrdən və müxtəlif şirkətlərdən daxil olan məlumatları birləşdirmək, vizuallaşdırmaq, araşdırma və yoxlamaq olar. Müxtəlif mənbələrdən daxil olan məlumatların toplanması sahiblik və nəzarətin mürəkkəb və səpələnmiş strukturu barədə izahatlar verir. Ancaq ümumi standart olmadan müxtəlif mənbələrdən əldə edilən məlumatların analizi və birləşdirilməsi hədsiz mürəkkəb, bahalı və vaxt aparan ola bilər.

Çirkli pulların yuyulması, vergidən yayınma və qeyri-müəyyən sahiblik zənciri qlobal problemə çevrilib və onun həlli üçün qlobal qərarlar tələb olunur. Vətəndaş cəmiyyəti, hökumət və biznes Benefisiar Sahiblik sahəsində şəffaflığın yaradılması sayəsində qazana bilər.

[16] https://register.openownership.org/data_sources
[17] https://register.openownership.org/

OpenOwnership proqramı çərçivəsində *BODS (Benefisiar Sahiblik üzrə Məlumat Standartı) sistemi* yaradılıb[18]. Sistemin məqsədi odur ki, müxtəlif ölkələrdə mövcud olan benefisiar sahibliklə bağlı məlumatlar BODS vasitəsilə bir-biri ilə əlaqələndirilə bilər. Bu, həmin məlumatların istifadəçiləri, məsələn, hökumət strukturları, vətəndaş cəmiyyətinin və özəl sektorun əməkdaşları üçün əhəmiyyətli ola bilər. *Vətəndaş cəmiyyəti təmsilçiləri* bir qayda olaraq benefisiar sahiblik məlumatlarını pul axınlarını izləmək üçün istifadə edirlər. *Biznes sektoru* benefisiar sahiblik məlumatlarından riskləri azaltmaq və kiminlə biznes qurduqlarının fərqində olduqlarını bilmək məqsədilə yararlanırlar. *Hökumət* benefisiar sahiblik məlumatları sayəsində şəffaflığı, rəqabəti, xidmət keyfiyyətini artırmaq üçün istifadə edir.

Benefisiar Sahiblik barədə məlumatların paylaşımı və ya tutuşdurulması zamanı aşağıdakı çətinliklər yarana bilər:

- *Məlumatlar böyük sənədin kiçik bir hissəsi olduqda;*
- *Eyni məzmunlu məlumatlar müxtəlif nəşrlərdə fərqli formada təqdim edildikdə;*
- *Müvafiq məlumatlar müxtəlif sənədlərdə olduqda;*
- *Hüquqi terminlər müxtəlif yurisdiksiyalarda fərqləndikdə*

Belə vəziyyətdə bu məlumatlara çıxış və Benefisiar Sahiblik üçün onların əhəmiyyətinin anlaşılması mürəkkəblik yarada bilər. Bu isə Benefisiar Sahiblik barədə ümumi mənzərəni aydınlaşdırmağı çətinləşdirir.




**Şəkil 6. Məlumatların standartlaşdırılması**

Artıq getdikcə daha çox hökumətlər və tənzimləyici orqanlar tələb edirlər ki, Benefisiar Sahiblik barədə məlumatlar açıqlansın və rəsmi reyestrə daxil edilsin. Bu

[18] http://standard.openownership.org/en/0.2.0/

tələblər şirkətlər üçün daha çox tələb olunan öhdəliklərə çevrilib. Çünki şirkətlər adətən Benefisiar Sahiblik barədə məlumatlara malik olurlar.  Ancaq bu məlumatlar heç də həmişə yazılmır,  arxivləşdirilmir və ya lazımi şəkildə açıqlanmır. Bu da hesabatların tətribini və onların interpretasyası çətinləşir




**Şəkil 7. Məlumatların reyestrə daxil edilməsi**

BODS sistemi bazaya daxil edilən məlumatları vahid formata salmağa imkan verir. Bura daxildir:

*Fiziki şəxs barədə məlumatlar və identifikatorlar*
*Şirkətlər barədə məlumatlar və identifikatorlar*
*Şirkətin iştirakının növləri və səviyyələri*
*Mənbə barədə məlumatlar*
*Keçmiş və indiki dövrə aid məlumatlar*
*Məlumatı redaktə etmək üçün zəruri yerin olması*

BODS-dan istifadə Benefisiar Sahiblik məlumatların istifadəsini və yayılmasını asanlaşdırır. Pilot ölkələrin reyestrində olan məlumatlar Qlobal OpenOwnership Reyesrtinə göndərilir və bununla da məlumalara asan çıxış imkanı yaranır. BODS sisteminin üstünlüyü ondadır ki, bir bıra hallarda istinad edə biləcəyimiz sənədlərin sayı çox olur və ya onlar sistemli olmur.

Standartın işlənməsi OpenOwnership təşkilatının həmsədrliyi ilə İşçi Qrupu tərəfindən həyata keçirilir. Hazırda BODS 0.2 versiyası tətbiq edilir. Standartın ilkin versiyası Böyük Britaniyanın Beynəlxalq İnkişaf Nazirliyi tərəfindən maliyyələşdirilib.

Platformanın tərəfdaşları şəffaflıq sahəsində dünyanın aparıcı təşkilatları, o cümlədən Transparency International, OpenCorporates, One, the Open Contracting Partnership, Global Witness və The B Team kimi təşkilatlardır.

## 2.2. *Məlumatların yoxlanması (verifikasiyası)*

Benefisiar Sahiblik reyestrində maksimal effektə nail olmaq üçün vacibdir ki, istifadəçilər və hakimiyyət orqanları reyesterdəki məlumatların geniş mənada hər hansı şirkətə real olaraq nəzarət edəni şəxsi və ya sahibi əks etdirməsinə əmin olsunlar. Verifikasiya benefisiar sahiblik məlumatların açıqlanmasının konkret rejiminin onun yüksək keyfiyyətinin təmin edilməsini, yəni dəqiq və tam olmasını nəzərdə tutur. Verifikasiya reyestrə daxil edilən məlumatların yoxlama sistemini yaradılması nəzərdə tutur. Bu sustem məlumatların daha az həqiqətəbənzər olmasını, düzgün formatda təqdim edilməsini, məlumatlarda boşluqların olmamasını, müvafiq səlahiyyətli şəxs tərəfindən təqdim edilməsini, yalan və səhvlərdən azad olmasını təmin etməlidir.

Benefisiar sahibliyin açıqlanması özündə 3 növ məlumatı əks etdirir:

- Sahiblik və ya nəzarət səlahiyyəti olan şəxs(lər) barədə məlumatlar
- Sahibliyin və ya nəzarətin xaraktere barədə məlumatlar
- Onların sahibi olduğu və ya nəzarət etdikləri şirkətlər ə ya digər hüquqi şəxslər barədə məlumatlar

Bu məlumatların hər biri üzrə müxtəlif növ yoxlamalar aparıla bilər. Bu yanaşmaların biri digərini istisna etmir, əksinə bu yanaşmalar bir-birini tamamlayır və birlikdə məlumatların keyfiyyəini və etibarlılığını gücləndir bilər.

Verifikasiya 3 mərhələdə aparılmalıdır:

- **İdentifikasiya və səlahiyyətlənmə (Authorization və authentication).** Benefisiar sahiblik barədə açıqlama verən şəxsin kimliyini yoxlamaq (authentication) və onun tələb irəli sürmək hüququnun (authorization) olduğunu dəqiqləşdirmək
- **Validasiya (Validation).** Təqdim edilən məlumatların hüquqi əsaslara malik olmasının təmin edilməsi
- **Həqiqətin yoxlanışı ("Truth" verification).** Açıqlamanın həqiqi olduğunu müəyyənləşdirmək

Qiymətləndirmələrə əsasən, dünyada korrupsiya hallarının təxminən 70%-i yalançı anonim şirkətlərin payına düşür.  Bu korrupsiya biznesi əlavə olaraq 10% bahalaşdırır. Anonim şirkətlər həmçinin bazar dəyərini və ictimai nüfuzunu zədələyə bilər. Panama sənədləri ilə bağlı məlumatlar dünyaya sızdıqdan sonra təxminən 400 şirkətin dəyəri 135 milyard dollar itki verdi[19].

Benefisiar sahibliyin şəffaflığı anonim şirkətlərin sıradan çıxarılmasına hədəflənib. Bu, qeydiyyatdan keçmiş bütün şirkətlərin sahiblərini identifikasiya etməyə, bu məlumatlara ehtiyac duyan biznes üçün inzibati maneələri və xərcləri kəskin ixtisar etməyə imkan verir.

Benefisiar sahiblik barədə məlumatlar daha çox ədalətli biznesin və normativ tələblərə riayətin fundamental əsası kimi tanınır. Təəssüf ki, şirkətlərin sahibləri və ona nəzarət edənlər barədə məlumatlar çox az sayda hökumətlər tərəfindən açıqlanır və bu da şirkətləri kompleks yoxlamağa çətinlik yaradır. OpenOwnership təşkilatı dəyişikliklərin tərəfdarı olmaq üçün özəl sektorla sıx əməkdaşlıq edir. Bir çox şirkətlər OpenOwnership platformasına qoşularaq daha çox hökumətin benefisiar sahiblik barədə məlumatların açıq reyestrini tətbiq etmələrinə çalışır.

---

[19] https://www.openownership.org/what-we-do/private-sector-engagement/

# 3. Benefisiar Sahiblik: Azərbaycanda hazırkı durum (imkanlar və maneələr)

*Azərbaycanda benefisiar sahibliyin açıqlanması üzrə Yol Xəritəsi ölkəmiz hələ beynəlxalq Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsünün (EİTİ) üzvü olarkən – 2016-cı ilin dekabrında – Çoxtərəfli Qrup tərəfindən təsdiqlənmişdi.*

## 3.1. *Azərbaycan beynəlxalq EİTİ prosesində (qısa xülasə)*

2003-cü ilin 17 iyununda Londonda keçirilən ilk EİTİ beynəlxalq konfransda Azərbaycan bu beynəlxalq təşəbbüsə qoşulduğunu bəyan edib. Həmin il noyabrın 13-də Azərbaycan hökumətinin (Nazirlər Kabinetinin) qərarı ilə xüsusi komissiya yaradılıb. 2004-cü ilin mayında bir qrup Azərbaycan QHT-ləri "Mədən Sənayesində Şəffaflığın Artırılması" Koalisiyasını yaratdılar. 2004-cü il noyabrın 24-də MHŞT-nün Azərbaycanda tətbiqinə dair maraq tərəflərinin iştirakı ilə üçtərəfli Anlaşma Memorandumu imzalandı. 2005-ci ildən başlayaraq Azərbaycan ildə iki dəfə (yarımillik və illik) hesabat açıqlamağa başladı. 2009-cu ilin fevralında Dohada (Qətər) 4-cü EİTİ Qlobal Konfransında Azərbaycan validasiya (təsdiqləmə) prosesini keçərək «MHŞT üzvü» statusu alan ilk ölkə oldu. Bundan sonra 2010-cu ildə Azərbaycanda maraq tərəflərinin təmsilçilərinin iştirakı ilə Çoxtərəfli Qrup yaradıldı və yeni Memorandum üzərində iş başladı. Yeni Memorandum 2014-cü ildə imzalandı. 2014-cü ildə azərbaycan EİTİ Standartının tələblərinə uyğunlaşdırılmaış 2013-cü il üzrə MHŞT hesabatını açıqladı. 2015-ci ildə EİTİ Standartının tələblərinə uyğun olaraq Azərbaycanda MHŞT prosesinin ikinci dəyərləndirməsi (validasiyası) aparıldı. 2014-cü ildən başlayaraq ölkədə Vətəndaş Cəmiyyətinə qarşı basqıların artması, QHT qanunvericiliyində beynəlxalq donor təşkilatlarının fəaliyyətinin məhdudlaşdırılması və qrant layihələrinin dövlət qeydiyyatı ilə bağlı tələblərin sərtləşdirilməsi, habelə ölkədə müstəqil Vətəndaş Cəmiyyətinin fəaliyyətinə artan məhdudiyyətlər səbəbindən Beynəlxalq EİTİ İdarə Heyəti dəyərləndirmənin (validasiyanın) nəticəsini yetərsiz hesab elədi, ölkənin statusu "MHŞT üzvü"lüyündən "Üzvlüyə namizəd" statusunua endirildi və Azərbaycana təkrar validasiya üçün tələblər müəyyən etdi və həmin tələblərin icrası üçün 1 il müddət təyin etdi[20]. İH-nin əsas tələbi ölkədə VC-nin sərbəst fəaliyyəti üçün zəruri

[20] https://eiti.org/news/azerbaijan-downgraded-to-candidate-country

mühitin təmin edilməsi idi. 2016-cı ildə Azərbaycanda təkrar dəyərləndirmə (validasiya) aparıldı. Təkrar validasiyanın nəticələri də qaneedici olmadığından Azərbaycanın MHŞT-dəki üzv statusunun dayandırılması yaxud prosesdən kənarlaşdırılması məsələsi gündəmə gəldi[21]. Buna görə də 2017-ci ilin martın 10-da Azərbaycan MHŞT-ni tərk etmək qərarını verdi.

## 3.2. *Hasilat sənayesində şəffaflıq təşəbbüsünün davam etdirilməsi üzrə milli proses*

Azərbaycan Beynəlxalq EİTİ prosesini tərk etdikdən dərhal sonra – 2017-ci il aprelin 5-də - Azərbaycan Respublikası Prezidenti "Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzaladı[22]. Fərmanda vurğulanırdı ki, Azərbaycan Respublikasında hasilat sənayesində şəffaflıq və hesabatlılıq standartlarının tətbiqi beynəlxalq prinsiplər əsasında davam etdirilsin. Bu məqsədilə Fərmana əsasən Hasilat Sənayesində Şəffaflıq (HSŞ) üzrə Komissiya yaradıldı. Fərmanda Komissiyaya tapşırılıb ki:

- ölkədə şəffaflıq sahəsində yuxarıda qeyd edilən beynəlxalq prinsiplərə riayət olunmasına nəzarət etsin;
- hasilat sənayesində şəffaflığın təmin edilməsi məqsədilə dövlət siyasətinin formalaşdırılmasında iştirak etməklə bu sahədə dövlət orqanlarının və digər qurumların fəaliyyətini əlaqələndirsin;
- təbii ehtiyatların istismarı ilə əlaqədar dövlətin bütün daxilolmaları və Azərbaycanın hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlərin dövlətə ödənişləri barədə hesabatların beynəlxalq standartlara uyğun təqdim olunması formasını və müddətlərini müəyyən etsin;
- hesabatların toplanması və yoxlanılması üçün müstəqil, ixtisaslaşmış audit şirkətinin seçilməsini təmin etsin;
- toplanmış məlumatlar əsasında hesabat formasına uyğun olaraq ümumiləşdirilmiş hesabatını tərtib etsin və onun mütəmadi şəkildə ictimaiyyətə açıqlanmasını təmin etsin;
- hesabatlılığın təşkil olunmasının bütün mərhələlərində qeyri-hökumət təşkilatları, özəl sektorun nümayəndələri və müstəqil ekspertlər ilə əməkdaşlıq etsin;

[21] https://eiti.org/document/validation-azerbaijan-2016-reports ; https://eiti.org/board-decision/2016-23
[22] http://www.e-qanun.az/framework/35174

- hasilat sənayesində şəffaflığın təmin edilməsinə dair normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflər versin.

Fərmanda Komissiyanın fərdi tərkibi təsdiq edilmişdi. Komissiyanın sədri Azərbaycan Respublikasının Dövlət Neft Fondunun (ARDNF) icraçı direktoru təsdiq edilmiş, Komissiyanın tərkibinə 6 nazirliyin nazir müavinləri və Dövlət Statistika Komitəsinin sədr müavini daxil edilmişdi.

Komissiya dərhal işə baıladı və 2016-cı il üzrə MHŞT hesabatını hazırlamağa start verdi. Komissiyanın katibliyinin müraciəti ilə prosesə qatılmaq istəyən Vətəndaş Cəmiyyəti təmsilçiləri (QHT nümayəndələri) katiclikdə akkreditasiya olundu və komissiyanın bütün iclaslarına dəvət olundular. VC təmsilçiləri Komissiyanın bütün iclaslarında iştirak edib müzakirə olunan bütün məsələlərə münasibət bildirir, Komissiyanın hesabatların hazırlanması üçün təşkil etdiyi İşçi Qruplarına dexil edilirdilər. Hətta Komissiyanın qəbul etdiyi bütün qərarlarda VC-nin fikri öyrənilir və nəzərə alınlrdı. Lakin bütün bu proseslərdə Vətəndaş Cəmiyyətinin dəqiq statusu müəyyən edilməmişdi: müzakirələrdə iştirak etməsinə, Komissiyanın qəbul etdiyi qərarlara təsir göstərə bilməsinə rəğmən Vətəndaş Cəmiyyəti bu prosesin rəsmi olaraq bir tərəfi deyildi. Yəni Beynəlxalq EİTİ prosesi hasilat sənayesinində şəffaflıqda maraqlı olan bütün tərəfləri – həm hökuməti, həm hasilat şirkətlərini, həm də ölkənin Vətəndaş Cəmiyyətini – özündə əka etdirən üçtərəfli bir proses olduğu halda, Azərbaycanda həyata keçirilən proses yalnız hökumət Komissiyasının məsuliyyəti və səlahiyyəti əsasında təşkil olunmuş bir təşəbbüsdür.

HSŞ Komissiyası fəaliyyət göstərdiyi 2017-2020-ci illər dövründə ölkənin mədən sənayesində şəffaflıq üzrə 3 il – 2016[23]-cı, 2017[24]-ci və 2018[25]-ci illər – üzrə hesabatları hazırlayıb ictimaiyyətə təqdim edib. Hər 3 hesabatın məzmunu EİTİ Standartının tələblərinə mümkün qədər uyğunlaşdırılıb və strukturu məhz Standartın tələbləri əsasında qurulub.

Məlum olduğu kimi, EİTİ Standartına əsasən beynəlxalq təşəbbüsün üzvü olan bütün ölkələrdə EİTİ İdarə Heyətinin qərarı ilə mütəmadi olaraq MHŞT prosesinin validasiyası (dəyərləndirilməsi) aparılır. Amma Azərbaycanda bu prosesin hər-hansı dəyərləndirilməsinin aparılması nəzərdə tutulmur və proses beynəlxalq xarakter

---

[23] https://oilfund.az/report-and-statistics/get-download-file/10_2016.pdf
[24] https://oilfund.az/report-and-statistics/get-download-file/10_2017.pdf
[25] https://oilfund.az/report-and-statistics/get-download-file/10_2018.pdf

daşımır. Beləliklə biz Azərbaycanda həyata keçirilən hasilat sənayesində şəffaflıq prosesini əsas əlamətlər üzrə beynəlxalq EİTİ prsesinindən fərqlərini aşağıdakı şəkildəki kimi göstərəbilərik (*şəkil 8*):




**Şəkil 8. Beynəlxalq EİTİ prosesi ilə milli HSŞ Komissiyasının işi arasında fərqlər**

Beynəlxalq EİTİ-dan çıxmasına və hasilat sənayesində şəffaflıq istiqamətində ölkədə həyata keçirilən prosesin beynəlxalq təşəbbüsüb standartlarına uyğun olmamasına rəğmən, 2017-2019-cu illər dövründə hasilat sənayesində baş verən proseslərin müvafiq illər üzrə hesabatlar-da əks olunduğunu söyləmək mümkündür. Bu da ölkənin hasilat sənayesində şəffaflığın təmin edilməsi sahəsində əhəmiyyətli bir addım hesab etmək olardı. lakin 2019-cu ilin sonunda ARDNF-in icraşı direktoru başqa vəzifəyə keçirildi. Habelə HSŞ Komissiyasının tərkibinə daxil olan ayrı-ayrı nazir müavinlərinin vəzifələri də dəyişdirildi ki, nəticədə Komissiyanın fəaliyyətini təşkil etmək mümkün olmadı və faktiki olaraq 2019-cu ilin ıv-cü rübündən sonra Komissiyanın toplantısı keçirilmədi və fəaliyyəti dayanmış oldu.

Nəhayət, 2020-ci il iyul 28-də Azərbaycan Respublikasının Prezidenti "Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman (1114 saylı) imzaladı[26]. Prezidentin həmin Fərmanının preambulasında qeyd olunur ki, "Son illərdə hesabatlılığı təşviq edən beynəlxalq prinsip və standartlarda hesabatvermə mexanizmlərinin səmərəliliyinin artırılması və daha çevik işləməsi

[26] https://president.az/articles/40124

məqsədilə mühüm dəyişikliklər edilmişdir. Bu dəyişikliklərdən biri də dövlət idarəçiliyində müasir texnologiyalardan istifadə etməklə aparılan işin səmərəliliyini artırmaq, məlumatlardan istifadə imkanlarını sadələşdirmək, məlumatları sərbəst əldə etmək üçün şəffaflıq və hesabatlılığın müntəzəmliyini təmin etmək məqsədilə hesabatlılığın aidiyyəti dövlət qurumlarının fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrilməsi yolu ilə tədricən onların açıqlama və hesabatvermə sistemlərinə inteqrasiya olunmasıdır. HSŞ sahəsində beynəlxalq standartların ardıcıl tərəfdarı olaraq Azərbaycan Respublikası bu dəyişikliklərin ölkəmizdə tətbiqini təmin etməyi və onların müsbət nəticələrindən yararlanmağı zəruri hesab edir".

Fərmana əsasən, bundan sonra "HSŞ üzrə hesabatlılığın təmin edilməsi Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə həvalə" edilib və bu quruma tapşırılıb ki:

- HSŞ üzrə hesabatlılıq sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirsin;
- Azərbaycan Respublikasında HSŞ üzrə hesabatların davamlı toplanılmasını və toplanmış hesabatlar əsasında ümumiləşdirilmiş rəsmi statistika məlumatlarının ictimaiyyətə açıqlanmasını təmin etsin.

Fərmanda habelə Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarına tapşırılıb və həmçinin Azərbaycan Respublikasında hasilat sənayesi sahəsində fəaliyyət göstərən xarici şirkətlərə tövsiyə edilib ki, HSŞ üzrə hesabatlılığın təmin edilməsi ilə əlaqədar zəruri məlumatları Dövlət Statistika Komitəsinin müəyyən etdiyi formada və müddətdə təqdim etsinlər.

Bu Fərmanla habelə Azərbaycan Respublikası Prezidentinin "Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərmanı ləğv edilib. Bu isə o deməkdir ki, artıq Azərbaycanda HSŞ üzrə hökumət Komissiyası olmayacaq.

## 3.3. *Benefisiar sahibliyin açıqlanmasına dair Azərbaycanın yol xəritəsi*

Azərbaycanda hasilat sənayesində fəaliyyət göstərən şirkətlərin benefisiarlarının açıqlanması üzrə Yol Xəritəsinin hazırlanması məsələsinin Çoxtərəfli Qrupda müzakirələrinə hələ 2015-ci ilin sonlarından start verilmişdi. Uzun müzakirələrdən

sonra, nəhayət, MHŞT üzrə Çoxtərəfli Qrupun 5 dekabr 2016-cı il tarixli iclasında Yol Xəritəsi təsdiq edilmişdi (protokol №48)[27].

Yol Xəritəsində aşağıdakı istiqamətlərdə fəaliyyətlər nəzərdə tutulurdu:

1. Benefisiar sahiblik və milli islahat prioritetləri ilə əlaqə,
2. Benefisiar sahiblik üzrə tələb olunan hüquqi islahatlar,
3. Benefisiar sahibliyin açıqlanması üçün institusional çərçivə,
4. Benefisiar sahibliyin anlayışı,
5. Siyasi Xadimlərin (Siyasi nüfuz sahiblərinin) hesabat öhdəlikləri,
6. Açıqlanmalı olan məlumatın detallı olma səviyyəsi,
7. Məlumatarın toplanması və açıqlığı,
8. Təqdim olunan məlumatın dəqiqliyinin təmin olunması,
9. Təqdim olunan məlumatların yenilənməsi,
10. Cəmiyyətin, hökumət qurularının və şirkətlərin benefisiar sahiblik barədə biliklərinin artırılması.

Lakin 2017-ci ilin martında MHŞT Çoxtərəfli Qrupun fəaliyyəti dayandırıldı və bu Yol Xəritəsinin icrasına nəzarət HSŞ Komissiyasına keçdi. Azərbaycan Hökumətinin Dünya Bankı və Asiya İnkişaf Bankı ilə apardığı danışıqlar nəticəsində Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə 2018-ci ilin mayından "***Azərbaycanda Hasilat Sənayesində Benefisiar Sahiblik Məlumatlarının Açıqlanmasına dair Yol Xəritəsinin tətbiqinə (BSYX) dəstək layihəsi***" həyata keçiirlməyə başlanıldı (layihənin icrası və tövsiyələri barədə aşağıda məlumat veriləcək).

## 3.4. *Azərbaycanın mövcud qanunvericiliyində "benefisiar sahiblik" konseptinin qoyuluşu*

Benefisiar sahiblik konsepti Azərbaycan qanunvericiliyində çirkli pulların yuyulması üzrə qanunvericilikdə əksini tapıb. "*Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında*" Azərbaycan Respublikasının Qanununda[28] (10 fevral 2009-cu il, № 767-IIIQ) "benefisiar mülkiyyətçi"nin anlayışı belə verilib:

- ***benefisiar mülkiyyətçi*** - *pul vəsaitləri və ya digər əmlakla əlaqədar əməliyyatlardan son nəticədə iqtisadi və ya hər hansı digər fayda əldə edən fiziki və ya hüquqi şəxs, o*

[27] https://www.oilfund.az/storage/images/ubwurm4ywd.pdf

[28] http://www.e-qanun.az/framework/16347

*cümlədən xeyrinə əqdlərin həyata keçirildiyi hüquqi şəxsin əsl sahibi və ya müştəriyə nəzarəti həyata keçirən və (və ya) adından maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirildiyi fiziki şəxs və ya hüquqi şəxsə nəzarəti həyata keçirən fiziki şəxsdir;*

***Qiymətli kağızlar bazarı haqqında*** Azərbaycan Respublikasının Qanununda[29] (15 may 2015-ci il, № 1284-IVQ) 31 may 2018-ci il tarixli 1165-VQD saylı Qanunla edilən dəyişiklə benefisiar mülkiyyətçinin anlayışı əlavə edilib. Həmin anlayış elə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda olduğu kimi müəyyən edilib.

*Banklar haqqında* Azərbaycan Respublikasının Qanununda[30] (16 yanvar 2004-cü il, № 590-IIQ) 31 may 2018-ci il tarixli 159-VQD saylı dəyişikliklə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması" adlı 42-ci maddədə vurğulanır ki, "*Kredit təşkilatları qanunla müəyyən olunmuş hallarda və qaydada müştərinin, benefisiar mülkiyyətçinin və səlahiyyətli nümayəndənin eyniləşdirilməsi, habelə onlar barədə əldə olunmuş eyniləşdirilmə məlumatlarının verifikasiyası üçün tədbirlər görməli, məlumatın sənədləşdirilməsi və saxlanılması tələblərinə əməl etməlidirlər*".

*İnvestisiya fondları haqqında* Azərbaycan Respublikasının Qanununda[31] (22 oktyabr 2010-cu il, № 1101-IIIQ) 31 may 2018-ci il tarixli 1164-VQD saylı Qanunla edilən dəyişikliyə əsasən benefisiar mülkiyyətçinin anlayışı belə verilib:

- ***benefisiar mülkiyyətçi*** *- investisiya fondunun fəaliyyətindən və həyata keçirdiyi əməliyyatlardan son nəticədə iqtisadi və ya hər hansı digər fayda əldə edən fiziki və ya hüquqi şəxs, o cümlədən xeyrinə əqdlərin həyata keçirildiyi hüquqi şəxsin əsl sahibi və ya müştəriyə nəzarəti həyata keçirən və (və ya) adından maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirildiyi fiziki şəxs və ya hüquqi şəxsə nəzarəti həyata keçirən fiziki şəxsdir.*

Bu müəyyənliklərdə diqqət çəkən əsas məqam budur ki, bütün hallarda beefisiar mülkiyyətçi kimi məhz "fiziki şəxs" müəyyən edilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 oktyabr tarixli 433 nömrəli qərarı ilə "*Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə*

[29] http://www.e-qanun.az/framework/30333
[30] http://www.e-qanun.az/framework/5825
[31] http://www.e-qanun.az/framework/20760

*kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə verilməsi Qaydası"* təsdiq edilmişdir[32]. Həmin Qaydada "benefisiar mülkiyyətçi" və "benefisiar mülkiyyətçi barədə məlumatlar"ın anlayışı verilib. Burada da benefisiar mülkiyyətçinin anlayışı yuxarıda təqdim etdiyimiz kimidir. "Benefisiar mülkiyyətçi barədə məlumatlar"ın anlayışı isə belə verilib:

- ***benefisiar mülkiyyətçi barədə məlumatlar*** – "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinə uyğun olaraq hüquqi şəxslərin dövlət reyestrində mövcud olan hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları, habelə "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 25.3-cü maddəsinə uyğun olaraq qiymətli kağız mülkiyyətçilərinin reyestrində mövcud olan qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatlar.

Lakin bu Qaydada benefisiar mülkiyyətçi barədə məlumatların yalnız monitorinq iştirakçılarına (yəni "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.7-ci maddəsində nəzərdə tutulan şəxslərə) verilməsi nəzərdə tutulur. Digər bütün hallar üçün bu məlumatlar kommersiya sirri hesab olunur və ictimaiyyətə açıqlanması qadağan edilir:

- *"1.3. Benefisiar mülkiyyətçi barədə məlumatlar monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər tərəfindən yayılmamalı və qorunmalıdır. Belə məlumatlar Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən kommersiya sirri hesab edilir və bu cür məlumatların yayılması məsuliyyətə səbəb olur"*.

Doğrudan da Azərbaycan Respublikasının mövcud qanunvericiliyində benefisiar sahibliyin (mülkiyyətçinin) açıqlanmasını qadağan edən konkret müddəalar yer alıb. Belə ki, "*Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında* Azərbaycan Respublikasının Qanununa (12 dekabr 2003-cü il № 560-IIQ) 2012-ci il iyunun 12-də edilən dəyişikliyə əsasən kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar dərc olunmalı və ictimaiyyətə açıqlanmalı çməlumatlar siyahısından çıxarılıb (maddə 18):

- "18.2. Hüquqi şəxslərin, xarici hüquqi şəxslərin nümayəndəlik və filiallarının dövlət qeydiyyatına alınması və dövlət reyestrinə daxil edilməsinə dair,

[32] http://www.e-qanun.az/framework/40254

habelə hüquqi şəxslərin təşkili və fəaliyyəti ilə əlaqədar dərc edilməsi qanunvericiliklə nəzərdə tutulmuş digər məlumatlar (*kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla*) ümumi tanışlıq üçün rəsmi dövlət qəzetində dərc edilir".

Oxşar məhdudiyyət *"Kommersiya sirri haqqında"* Azərbaycan Respublikasının Qanununda[33] (4 dekabr 2001-ci il № 224-IIQ) əks olunub. Qanunda edilən 12 iyun 2012-ci il tarixli dəyişikliyə əsasən kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar kommersiya sirri hesab edilməyən məlumatlar sırasından çıxarılıb.

Bunlarla yanaşı *"Fərdi məlumatlar haqqında"* Azərbaycan Respublikası Qanununun[34] (11 may 2010-cu il № 998-IIIQ) ayrı-ayrı müddəaları benefisiar sahiblik (mülkiyyətçi) barədə məlumatların açıqlanmasına maneələr yarada bilər.

İndiyəcən ölkədə məmurların gəlir və əmlakı barədə illik bəyannamələrinin verilməsi və ictimaiyyətə açıqlanması təcrübəsinin, habelə bu sahədə dəqiq formalaşdırılmış hüquqi bazanın mövcud olmaması da benefisiar sahiblik (mülkiyyətçi) barədə məlumatların açıqlanması sahəsində hüquqi maneələr hesab oluna bilər.

Azərbaycan qanunvericiliyində "siyasi nüfuz sahibi"nin müəyyənliyi də yalnız "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda verilib:

- *xarici dövlətlərin siyasi xadimləri* - hər hansı xarici dövlətdə mühüm ictimai vəzifə tutan və ya əvvəllər belə vəzifəni tutmuş şəxslər (dövlət və ya hökumət başçıları, nüfuzlu siyasətçilər, hökumət üzvləri, yuxarı instansiya məhkəmələrinin hakimləri, yüksək rütbəli hərbi qulluqçular, dövlət mülkiyyətində olan müəssisələrin rəhbər vəzifəli şəxsləri, siyasi partiya vəzifəli şəxsləri), onların ailə üzvləri və yaxın qohumları;

Göründüyü kimi, burada "siyasi nüfuz sahibi" anlyaşı yalnız xarici ölkələrin siyasi xadimlərinə münasibətdə müəyyən edilib. Azərbaycanda "siyasi nüfuz sahibi" anlayışına kimlərin aid edilməsi məsələsi ölkənin mövcud qanunvericiliyində həllini tapmayıb.

---

[33] http://www.e-qanun.az/framework/2861
[34] http://www.e-qanun.az/framework/19675

## 3.5. *Benefisiar sahiblik məlumatlarının açıqlanmasıa dəstək layihəsi: icrası və tövsiyələri*

Yuxarıda qeyd etdiyimiz kimi, Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə 2018-ci ilin mayından həyata keçirilən “Azərbaycanda Hasilat Sənayesində Benefisiar Sahiblik Məlumatlarının Açıqlanmasına dair Yol Xəritəsinin tətbiqinə (BSYX) dəstək layihəsi” 2019-cu ilin dekabrınadək davam edib.

Layihənin sifarişçisi kimi Azərbaycan Respublikasının Dövlət Neft Fondu və Azərbaycan Respublikasının Maliyyə nazirliyi çıxış edirdi. Layihənin icrası çərçivəsində elan olunan satınalma tenderində layihənin məsləhətçiləri kimi aşağıdakı şirkətlər seçildi:

- BDO Azərbaycan MMC (BDO),
- Engaged Consulting Limited (Birləşmiş Krallıq)
- Michael Barron Consulting Ltd (Birləşmiş Krallıq)

Layihənin icrasının 2019-cu ilin dekabrında başa çatması nəzərdə tutulurdu.

Qeyd olunmalıdır ki, layihənin fokusu Azərbaycanın hasilat (mədən) sənayesində fəaliyyət göstərən hasilat şirkətlərinin benefisiar sahiblərinin açıqlanmasına yönəlik idi. Benefisiar sahiblik layihəsinin əhatə dairəsinə aşağıdakılar edilmişdi:

- neft, qaz və mineralların kəşfi, işlənməsi və hasilatı ilə əlaqədar lisenziyalara müraciət edənlər;
- neft, qaz və mineralların kəşfiyyat fəaliyyətinin icra edənlər;
- neft, qaz və mineral resurslarını işlədənlər;
- neft, qaz və mineralların hasilatı ilə məşğul olanlar;
- ixrac kəmərlərini idarə edən şirkətlər də daxil olmaqla neft, qaz və mineralların ixracı ilə məşğul olanlar;
- neft, qaz və mineral hasilatı dövlətin paylarının alanlar;
- yuxarıdakı fəaliyyətlərdən hər hansı birinin həyata keçirilməsi məqsədilə bir-biri ilə ortaq razılaşma bağlayanlar; və
- yuxarıdakı fəaliyyətlərdən hər hansı birinin həyata keçirilməsi məqsədilə mühəndislik, təchizat və tikinti (MTT), əməliyyat və xidmət (ƏX) və digər material uzun müddətli xidmət müqavilələri bağlayanlar.

Layihənin icrası çərçivəsində məsləhətçi şirkətlərin aşağıdakı fəaliyyətləri həyata keçirməsi nəzərdə tutulurdu:

- təriflər və qanunvericilik də daxil olmaqla benefisiar sahibliyin açıqlanmasında qabaqcıl beynəlxalq təcrübənin kameral araşdırılması;
- Azərbaycanın hazırki müvafiq qanunvericiliyi, praktika və proseslərin təhlili;
- hökumət, qanunvericilər, şirkətlər, sivil cəmiyyət və elmi işçilər də daxil olmaqla bir çox maraqlı tərəflərlə müzakirələr və məsləhətləşmələrin aparılması;
- məsləhətləşmə/təsdiq sessiyaları.

layihənin icraçısı olan məsləhətçi şirkətlər layihədə nəzərdə tutulan bütün fəaliyyətləri ardıcıl olaraq həyata keçiriblər. Onlar bütün maraq tərəfləri ilə görüşlər və sorğular keçirərək, ayrı-ayrı məsələlələr üzrə bütün maraq tərəflərinin mövqelərini öyrənmiş, benefisiar sahibliyin tətbiqi sahəsində çox sayda xarici ölkələrin və beynəlxalq təşkilatların təcrübələrini araşdırmış, Azərbaycan qanunvericiliyini benefisiar sahibliyin tətbiqi baxımından araşdırmış və bu fəaliyyətlərin hər biri üzrə müvafiq hesabatlar hazırlayaraq ictimaiyyətə açıqlamışdır[35].

Məsləhətçilərin 2 saylı Hesabatına əsasən onlar benefisiar sahiblik məlumatlarının açıqlanması sistemləri barədə Avstraliya, İndoneziya,Qırğızıstan Respublikası, Monqolustan, Birləşmiş Krallıq, Ukrayna və Zambiya kimi ölkələrin təcrübələrini araşdırmış, Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü (EİTİ), Avropa Birliyi, Maliyyə Fəaliyyəti Vəzifə Qrupu (MFVQ) (G7) və bir sırad digər beynəlxalq təşkilatların bu mövzu ilə bağlı mövqelərini və tələblərini öyrənmiş və aşağıdakı kimi yekun bir cədvəl hazırlamışdır.

[35] https://oilfund.az/fund/relations/ownership

**Cədvəl 1**

**Müqayisə edilən ölkələr, təşkilatlar və təşəbbüslər üçün benefisiar sahiblik təriflərinin xülasəsi (SNS-lər daxil olmaqla)**

| Müqayisə üçün müqayisə üçün seçilmiş ölkələr və beynəlxalq institutlar/təşəbbüslər | | Fiziki Şəxslər | Sahiblik və Nəzarət | Birbaşa və dolayı sahiblik | Ümumi hədd (%) | Fond Birjalarının istisnası | Hökumət istisnası | SNS-lər |
|---|---|---|---|---|---|---|---|---|
| Avstraliya | | ✓ | ✓ | ✓ | 25 | X | X | ✓ |
| İndoneziya | | ✓ | ✓ | ✓ | 25 | X | X | X |
| Qırğızıstan Respublikası | HSŞT | ✓ | ✓ | ✓ | 5 | X | X | ✓ |
| | Qanun | ✓ | ✓ | ✓ | 10 | X | X | ✓ |
| Monqolustan (qanun layihəsi) | | ✓ | ✓ | ✓ | 20 | X | X | ✓ |
| Birləşmiş Krallıq | | ✓ | ✓ | ✓ | 25 | ✓ | X | ✓[a] |
| Ukrayna | | ✓ | ✓ | ✓ | 25 | X | X | ✓[b] |
| Zambiya [c] | HSŞT | ✓ | ✓ | ✓ | Yoxdur | X | X | ✓ |
| | Qanun | ✓ | ✓ | ✓ | 25 | X | X | X |
| HSŞT | | ✓ | ✓ | ✓ | 5-25 | ✓ | X | ✓ |
| AB | | ✓ | ✓ | ✓ | 25 | ✓ | X | ✓ |
| MTİQ | | ✓ | ✓ | ✓ | 25 | X | X | ✓ |
| Azərbaycan | Mövcud qanun | X | ✓ | ✓ | X | X | X | ✓ |
| | Təklif | ✓ | ✓ | ✓ | 20 | X[c] | ✓ | ✓ |

(**Mənbə**: Benefisiar sahiblik tərifinin layihəsi üzrə 3 saylı Hesabat[36], səh. 17)

Benefisiar sahibliyin açıqlanmasının komponentləri aşağıdakılardır:

a) benefisiar sahibliyi həddini müəyyən etmək üçün meyarlar (SNS-lər və, açıqlama üçün mümkün istisnalar, açıqlamanı tələb edən hədləri) daxil olmaqla "benefisiar sahib" anlayışının nə olması;

b) iştirakın ölçüsü, ad, ünvan, vətəndaşlıq və s. kimi açıqlanmalı olan detallar;

c) əhatə dairəsi, məlumatların toplanması və açıqlanma mexanizmləri, hesabatlılıq dairəsinə daxil şirkətlərin kateqoriyaları, məlumatın necə toplanması və sonradan necə hesabat verilməsi (misal üçün, ictimaiyyətə açıq və ödənişsiz olan hüquqi şəxslərin reyestri vasitəsi ilə);

d) yoxlama prosesi və hesabatın verilməməsi və ya hesabatda düzgün olmayan məlumatların göstərilməsinə görə sanksiyalar;

[36] https://oilfund.az/fund/relations/ownership

e) qeyri-müəyyənliyin olmaması üçün hər hansı hüquqi maneələri aradan qaldırmaq daxil, benefisiar sahiblik anlayışının tətbiq edilməsi üçün istifadə olunan qanunvericilik prosesi.

Layihənin icrası çərçivəsində məsləhət şirkətləri Azərbaycan üçün ölkə qanunvericiliyində "benefisiar sahib"in və "siyasi nüfuz sahibləri"nin anlayışlarını belə təklif edib:

- ***Benefisiar sahib*** - Hüquqi şəxsin və ya hüquqi cəhətdən məcburi sövdələşmənin "benefisiar sahib"i sahibliyin və ya nəzarətin birbaşa və ya dolayı olmasından asılı olmayaraq son nəticədə bu hüquqi şəxsə və ya hüquqi sövdələşməyə sahib olan və ya ona nəzarət edən fiziki şəxs(lər)dir.

Bu maddənin məqsədləri üçün, əgər bir fiziki şəxs birbaşa və ya dolayı olaraq:

**a)** bir hüquqi şəxsdə payların və ya səsvermə hüququnun 20% və ya daha çox hissəsinə sahibdirsə və ya nəzarət edirsə;

və ya

**b)** fiziki şəxs Siyasi Nüfuz Sahibi olduğu təqdirdə, həmin fiziki şəxs hüquqi şəxsdə payların və ya səsvermə hüququnun 5% və ya daha çox hissəsinə sahibdirsə və ya nəzarət edirsə;

və ya

**c)** hüquqi şəxsin və ya hüquqi cəhətdən məcburi sövdələşmənin direktorlar şurasının və ya ona ekvivalent orqanının üzvlərinin əksəriyyətini təyin etməyə, təyinata veto qoymağa və ya səlahiyyətlərinə xitam verməyə hüququ varsa;

və ya

**d) a - c** bəndlərinin tətbiq edilmədiyi hallarda:

*a. hüquqi şəxsə və ya hüquqi cəhətdən məcburi sövdələşməyə; və ya*

*b. hüquqi şəxs olmadığına baxmayaraq a)-dan c)-yə qədər meyarları təmin edəcək trast və ya firmaya*

əhəmiyyətli dərəcədə təsir və ya nəzarət etmək hüququna malikdirsə və ya təsir və ya nəzarət edirsə və ya onlardan əhəmiyyətli iqtisadi fayda əldə edirsə, bu zaman fiziki şəxsin hüquqi şəxsin və ya hüquqi cəhətdən məcburi sövdələşmənin "sahibi olduğu və ya nəzarət etdiyi" hesab edilir.

**e)** Hər bir halda agentlər, nominal payçılar, trast idarəçiləri və digər vasitəçilər benefisiar sahib hesab edilmirlər.

**f)** Birgə müəssisə olduğu təqdirdə, müəssisə daxilindəki hər qurum öz benefisiar sahib(lər)ini açıqlamalıdır.

Layihə icraçıları hesab edirlər ki, "fiziki şəxs" tələbindən yalnız bir halda istisna ola bilər: əgər dövlət və ya dövlət orqanı, fiziki şəxs olduğu təqdirdə, yuxarıdakı 1 bəndinə əsasən benefisiar sahib hesab edilsə, o halda dövlət və ya dövlət orqanı benefisiar sahibdir.

- **Siyasi nüfuz sahibləri:**

**a)** "Siyasi nüfuz sahibi" termini vacib dövlət funksiyalarına malik və ya malik olmuş fiziki şəxs anlamını verir və aşağıdakı şəxsləri, onların ailə üzvlərini və onların yaxın tərəfdaşları kimi tanınan şəxsləri əhatə edir, lakin bununla məhdudlaşmır:

- ölkə rəhbərləri, hökumət rəhbərləri, nazirlər, nazir müavinləri və ya köməkçiləri;
- parlament və ya oxşar qanunvericilik orqanlarının üzvləri;
- siyasi partiyaların idarəedici orqanlarının üzvləri;
- ali məhkəmələrin, konstitusiya məhkəmələrinin və ya müstəsna hallardan başqa şikayət verilə bilinməyən qərarlar qəbul edən digər yüksək-səviyyəli məhkəmə orqanlarının üzvləri;
- hesablama palataların və ya mərkəzi bankların idarə orqanlarının üzvləri;
- səfirlər, xüsusi işlər üzrə müvəkillər və silahlı qüvvələrin yüksək-rütbəli vəzifəli şəxsləri;
- dövlət şirkətlərinin inzibati, idarəetmə və müşahidə şuralarının üzvləri;
- beynəlxalq təşkilatların direktorlar şurasının və ya eyni funksiyalı orqanının direktorları, direktor müavinləri və üzvləri.

(a) bəndindən (h) bəndinə kimi qeyd edilən heç bir dövlət funksiyası orta-təbəqəli və ya daha kiçik vəzifəli şəxsləri əhatə etməsi kimi qəbul edilə bilməz

**b)** Hazırki 3-cü bəndin məqsədləri üçün (yəni SNS-nin) "***ailə üzvləri*** " aşağıdakı şəxsləri əhatə edir:

- siyasi nüfuz sahibinin həyat yoldaşı və ya ona bərabər tutulan şəxs;
- siyasi nüfuz sahibinin bacı və qardaşları, uşaqları və nəvələri və onların həyat yoldaşları və ya onlara bərabər tutulan şəxslər belə əlaqələrin bioloji, ögey və ya digər qaydada olmasından asılı olmayaraq;
- siyasi nüfuz sahibinin valideynləri və ya nənə və babaları;

Siyasi nüfuz sahiblərinin "***yaxın tərəfdaşları kimi tanınan şəxslər***" aşağıdakıları bildirir:

- siyasi nüfuz sahibləri ilə hüquqi şəxslərin və ya hüquqi sövdələşmələrin birgə benefisiar sahibliyə malik və ya hər hansı digər yaxın biznes əlaqəsi olan fiziki şəxslər;
- siyasi nüfuz sahibinin faktiki gəliri üçün yaradılması məlum olan hüquqi şəxslərin və ya hüquqi sövdələşmələrin yeganə benefisiar sahibliyinə malik fiziki şəxslər.

***Qanunvericilikdə tətbiqetmə metodu***. Layihənin icraçısı olan BDO Azərbaycan MMC və tərəfdaşları xarici təcrübələrə istinadən hesab ediblər ki, benefisiar sahibliyin açıqlanması rejiminin hüquqi cəhətdən könüllü olması (yəni şirkətlərin bunu könüllü açıqlamaları) effektsizdir. Buna görə də onlar Azərbaycan üçün benefisiar sahibliyin açıqlanmasını hüquqi cəhətdən məcburi xarakter daşımalı olmasını tövsiye ediblər.

Benefisiar sahibliyin açıqlanması tələblərinin yaxın gələcəkdə ümumi (yəni bütün sahələrə aid edilən) tələb kimi həqiqət ola bilməyəcəyini nəzərə alaraq, tələb olunan rejimin ən azından hasilat sənayesində əldə edilməsi üçün aşağıdakı ssenarilər nəzərə alına bilər:

- xüsusilə hasilat sənayesi üçün benefisiar sahiblik tələbləri tətbiq edən ayrıca qanun və bu ayrıca qanun ilə müxtəlif hüquqi aktların sonrakı harmonizasiyası;
- müvafiq qanunlara dəyişikliklər yolu ilə benefisiar sahiblik tələblərinin təqdim edilməsi.

***Açıqlanmalı məlumatların çərçivəsi.*** HSŞT Benefisiar Sahiblik Pilot Dəyərləndirmə Hesabatında vurğulanır: "Benefisiar sahibin adından əlavə benefisiar sahibliyin təfərrüatları… yəni, doğum tarixi, milli eyniləşdirmə nömrəsi, milliyyəti, yaşadığı ölkə və ünvan məlumatın faydalı olması üçün vacibdir". Bunu və digər beynəlxalq təşkilatların tələblərini, habelə öyrəndikləri ölkələrin təcrübəsi əsasında BDO Azərbaycan MMC və tərəfdaşları hesab edirlər ki, əsaslı marağı olan hər bir kəs ən azından hər hansı benefisiar sahiblə bağlı aşağıdakı məlumatları əldə edə bilməlidir:

- adı;
- doğum ayı və ili;
- milliyyəti;
- yaşadığı ölkə;
- nəzarətin təbiəti;
- marağın həcmi.

***Məlumat bazasına açıq və ya məhdud giriş?*** Layihə icraçılarının hesabatında qeyd olunub ki, benefisiar sahiblik məlumatının bütün ictimaiyyətə açıq olması və ya girişin məhdud olması – ola bilsin yalnız dövlət orqanları və əsaslı marağı olan digər şəxslərə giriş hüququnun verilməsi barədə standart yanaşma yoxdur. Bəzi ölkələr (məsələn, Avstraliya və İndoneziya) hazırda daha məhdud girişli rejimə sahib olsa da, Birləşmiş Krallıq, Qırğızıstan Respublikası, AB, Ukrayna və bəzi digər ölkələr açıq girişi təmin ediblər. Hərçənd, HSŞT-nin 2.5 saylı Tələbi bu məsələ ilə bağlı çox aydındır: reyestr ictimaiyyətə açıq olmalıdır. Azərbaycan kontekstində belə ictimai giriş hasilat sənayesində şəffaflığın artırılması məqsədilə hökumətin bəyan etdiyi strateji hədəflərini əks etdirə bilərdi.

Layihənin icrası və irəli sürülən tövsiyələrdən göründüyü kimi, Azərbaycanda hasilat sənayesində fəaliyyət göstərən şirkətlərin benefisiarlarının açıqlanması üzrə Çoxtərəfli Qrupun hazırladığı Yol Xəritəsində nəzərdə tutulan bütün məsələlər tövsiyələr layihənin hesabatında formasında öz əksini tapıb. Layihə icraçılarının verdiyi məlumata görə, hesabatlar və ölkə qanunvericiliyində bu tövsiyələrin nəzərə alınması üzrə konkret təkliflər müvafiq dövlət qurumlarına təqdim edilib. Bundan sonra həmin tövsiyələrin necə və nə zaman reallaşdırılması məsələsi tamamilə qanunverici qurumun və Azərbaycan hökumətinin səlahiyyətindədir.

## 3.6. *Benefifisiar sahiblik konseptinin Azərbaycan cəmiyyətində anlaşılma səviyyəsi: sorğular nə göstərir?*

“Benefisiar sahibliyin açıqlanması mədən sənayesində şəffaflığın vacib elementidir” layihəsi çərçivəsində ölkənin hasilat sənayesində fəaliyyət göstərən 50 şirkət və 300 sahibkarlıq subyekti arasında “benefisiar sahiblik” barədə keçirilən sorğunun nəticələri, habelə layihə çərçivəsində həyata keçirilən jurnalst araşdırmaları əsasında belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan cəmiyyətində bu konsept haqqında məlumatlılıq səviyyəsi və bilgilər çox aşağıdır.

Belə ki, jurnalistin mövzu ilə bağlı müraciət etdiyi Milli Məclisin ***11 deputatından yalnız ikisi*** (18%-i) benefisiar sahiblik barədə az da olsa məlumatlı olub, qalanları mövzu barədə məlumatsız olduqlarını deyiblər[37].

---

[37] https://modern.az/az/news/247902

Müəssisələrin əsl sahiblərinin (fiziki şəxs olaraq) açıqlanması ilə əlaqədar Bakı şəhərində Hasilat sənayesində fəaliyyət göstərən ***50 (əlli) müəssisə nümayəndəsi arasında telefon sorğusu*** keçirilib. Azərbaycanda hasilat sənayesində fəaliyyət göstərən 45 müəssisəyə müraciət edilsə də, onlardan yalnız 18-inin nümayəndəsi sorğuda iştirak etməyə razılıq vermişdir. Əlavə olaraq 32 müəssisə hasilat sənayesində fəaliyyət göstərən müəssisələrə subpodrat xidmətləri təqdim edən sahibkarlıq subyektləri arasından sorğuya cəlb edilmişdir: burada da əslində 79 sahibkarlıq subyektinə müraciət olunsa da, onlardan 32-si sorğuya qatılmağa razılıq verib. Beləliklə, sorğu zamanı hasilat sənayesində fəaliyyət göstərən yzxud burada subpodrat xidmətləri göstərən 124 şirkətə müraciət olunsa da, bunlardan yalnız 50-si (yaxud 40 faizi) sorğuda iştiraka razılıq verib.

Respondentlərə ünvanlanan *"hazırda dünyanın 70-dən çox ölkəsində şirkətlərin əsl sahiblərinin (fiziki şəxs olaraq) açıqlanması prosesləri gedir. Bu barədə məlumatlısınızmı?"* sualına sorğuda iştirak etmiş respondentlərin 36-sı yaxud 72.0 faizi bu barədə ilk dəfə eşitdiklərini bildiib. 9 respondent (18.0%) bu barədə tam, 5 respondent (10.0%) isə qismən məlumatlı olduğunu qeyd ediblər.

*"Beynəlxalq Mədən Sənayesində Şəffaflıq Təşəbbüsündə iştirak edən ölkələrin mədən sənayesində çalışan şirkətləri bu ildən benefisiarlarını (şirkətlərin əsil sahiblərini) açıqlamağa başlamışlar. Bunu MHŞT Standartı tələb edir. Bu proses haqqında məlumatınız varmı?"* sualını respondentlərin 74.0 faizi (yəni 37 respondent) mənfi cavablandırıb. Yalnız 13 respondent (26.0%-i ) bu proses haqqında məlumatlı olduğunu bildiriblər.

Qeyri-hasilat sahələrində çalışan ***300 sahibkarlıq subyekti arasında keçirilən telefon sorğusu***nun da nəticələri oxşar olub. Belə ki, telefon sorğusu zamanı ümumilikdə 1246 respondentə müraciət olunsa da, onlardan yalnız 300-ü (yaxud 24.1%-i)sorğuda iştiraka razılıq verib. *"Hazırda dünyanın 70-dən çox ölkəsində müəssisələrin əsl sahiblərinin (fiziki şəxs olaraq) açıqlanması prosesləri gedir. Bu barədə məlumatlısınızmı?"* sualına cavabında sorğuda iştirak edənlərin 276-sı yaxud 92.0%-i bu barədə ilk dəfə eşitdiyini lərini bildiriblər. 11 nəfər (3.7%) proses haqqında tam, daha 13 nəfər (4.3%) isə qismən məlumatlı olduqlarını bildiriblər.

Bu durum Azərbaycan cəmiyyətində "benefisiar sahiblik" konsepti haqqında geniş miqyasda məlumatlandırma və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi zəruriliyini göstərir.

## 3.7. *Benefisiar sahibliyin açıqlanması sahəsində Vətəndaş Cəmiyyəti nə edə bilər?*

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2020-ci il tarixli (1114 saylı) Fərmanı ilə Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiyanın fəaliyyətinə son qoyulub və HSŞ üzrə hesabatlılığın təmin edilməsi Dövlət Statistika Komitəsinə həvalə edilib. Həmin Fərmanda maraq tərəflərinin iştirakını nəzərdə tutan hər-hansı dialoq yaxud müzakirə mexanizminin yaradılması nəzərdə tutulmayıb. Bununla da VC hasilat sənayesində şəffaflığın təmin edilməsi sahəsində uzun illərdən bəri istifadə etdiyi maraq tərəflərinin üçtərəfli dialoq mexanizmindən faktiki olaraq məhrum olub. Belə bir şəraitdə hasilat sənayesində şəffaflığın artırılması sahəsində fəaliyyət göstərən VC qurumları yeni dialoq mexanizmləri barədə düşünməli, vəkillik işlərini gücləndirməli olacaqlar.

Məlumdur ki, hasilat sənayesində benefisiar sahiblik məsələsi MHŞT prosesndən start götürüb və elə Azərbaycanda da bu məsələ ölkənin MHŞT üzvü olduğu zaman Çoxtərəfli Qrup tərəfindən gündəmə gətirilib. Artıq Çoxtərəfli Qrup yaxud HSŞ üzrə Komissiya kimi dialoq mexanizmləri ortada olmadığından ölkənin hasilat sənayesində benefisiar sahibliyin tətbiqi istiqamətində başlanılmış işlərin yarımçıq qalma təhlükəsi kifayət qədər böyükdür. Çünki bu məsələnin həllinə maraq göstərən, buna hansısa bir formada məsuliyyət daşıyan və bu sahədə azca da olsa səlahiyyətə malik olan hər-hansı bir qurum – istər hökumət, istərsə də ictimai quurm olsun – ortada yoxdur. Ölkənin hasilat sənayesində (həm də yalnız burda yox, bütün sahələrdə) benefisiar sahibliyin tətbiqində, habelə bütövlükdəbu sektorda şəffaflıq və hesabatlılığın dərinləşməsində maraqlı olan əsas ictimai təbəqə məhz Vətəndaş Cəmiyyətidir.

İndiki şəraitdə ölkənin hasilat sənayesində şəffaflıq və hesabatlılıq təşəbbüslərinin davam etdirilməsi, dərinləşdirilməsi, habelə benefisiar sahibliyin tətbiqi istiqamətində işlərin davam etdirilməsi üçün VC fəaliyyətini aşağıdakı istiqamətlərdə qurması məqsədəuyğun olardı:

- hasilat sənayesində şəffaflıq və hesabatlılıq, habelə benefisiar sahibliyin tətbiqi üzrə yeni VC koalisiyasının yaradılması;
- hasilat sənayesində benefisiar sahibliyin tətbiqi üzrə BDO Azərbaycan MMC və partnyorları tərəfindən hazırlanmış təklif və tövsiyələrin vəkillik işlərinin təşkili;

- ilk növbədə kommersiya qurumlarının təsisçiləri barədə məlumatların kommersiya sirri olması barədə müddəaların mövcud qanunvericilikdən çıxarılması istiqamətində vəkillik işlərinin gücləndirilməsi;
- benefisiar sahiblik konsepti və onun tətbiqinin əhəmiyyəti barədə QHT və jurnalistlər arasında davamlı maarifləndirmə işlərinin aparılması;
- mətbuatda, TV-lərdə və sosial nediada davamlı olaraq benefisiar sahiblik mövzusunda məlumatlarla çıxış edilməsi;
- benefisiar sahibliyin tətbiqinin əhəmiyyəti və imkanları barəsində cəmiyyətin müxtəlif sosial qruplarının məlumatlandırılması və maarifləndirilməsi istiqamətində fəaliyyətlərin təşkili və s..
- benefisiar sahiblik barədə beynəlxalq təşəbbüslərin davamlı olaraq izlənilməsi və ictimaiyyətə çatdırılması